Xalqın qəzeti!

# Xalq qəzeti

№ 255 (30371) 23 noyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Azərbaycan Mərkəzi Asiya bazarında layiqli yer tutur

### Prezident İlham Əliyev SPECA ölkələrinin sərgisinin açılışında iştirak edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Bakı Ekspo Mərkəzində Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı – SPECA həftəsi çərçivəsində Azərbaycanın xüsusi təşəbbüsü ilə keçirilən “SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq” adlı sərginin açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına sərgi ilə bağlı məlumat verdi.

Paytaxt Bakı Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı – SPECA həftəsinə ev sahibliyi edir. Proqrama üzv dövlətlər Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstandır. 1998-ci ildə yaradılan proqrama Azərbaycan 2002-ci ildə qoşulub və birliyin fəal üzvlərindəndir. Proqramın məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir.

*(ardı 2-ci səhifədə)*

## Şər koalisiyası: iştirakçılar eyni, maraqlar isə fərqlidir




**Azərbaycan xalqı son otuz ildə ədalətsizliyin çox növü ilə üzləşməli oldu. Zəmanəmizin uzunömürlü və faciəli münaqişələrindən biri olan Ermənistan – Azərbaycan qarşıdurması milyonlarla soydaşımızın taleyində silinməz izlər buraxdı. Artıq yaralarımızın sağaldılması mərhələsi başlanıb. Amma son otuz ildə başımıza gələnləri unutmamaq o acı taleyi bir daha yaşamamaq baxımından çox əhəmiyyətlidir.**

“Hazırda baş verənlərin dəqiq təhlili üçün bizim hamımız keçmişimizə, 1990-cı illərin əvvəlində nə baş verdiyinə nəzər salmalıyıq”. Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda səfərdə olan İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidlə birgə keçirdiyi mətbuat konfransında söyləyib. Cənab Prezidentin son otuz ildə Azərbaycan xalqının başına gətirilənlərin səbəblərinə yığcam, amma heyrətamiz dərəcədə arqumentli tarixi ekskursu bu gün Cənubi Qafqazda cərəyan edən hadisələri düzgün qiymətləndirmək baxımından olduqca vacibdir. Ən azı o zaman buraxılan səhvlərə bir daha yol verməmək, dostumuzu-düşmənimizi tanımaq, qarşıda üzləşə biləcəyimiz hərbi-siyasi “fors-majorlardan” özümüzü sığortalamaq üçün keçmişdə baş verənlərə yeni gözlə baxmağımıza hamımızın ehtiyacı var.

*(ardı 4-cü səhifədə)*

## ABŞ-ın “demokratiyaya dəstəyi” antidemokratik dəyənəkdir

Səhifə ⇨ 3

**ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) direktoru Samanta Pauer öz ampluasındadır. Azərbaycan Ordusunun ölkənin bütün ərazisində dövlət suverenliyinin bərqərar olması məqsədilə sentyabrın 19-20-də keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra – sentyabrın 25-də dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kimlə birlikdə İrəvanda peyda olan, burada iki gün vaxt keçirən, Nikol Paşinyana Prezident Co Baydenin məktubunu çatdıran, sərhədyanı Gorunzur (Kornidzor) kəndinə gedərək Qarabağı könüllü tərk etmiş ermənilərlə görüşən, onlara “canıyananlıq” edən Pauer “X” platformasındakı hesabında haylara bəslədiyi tükənməz sevgisini bir daha ortaya qoyub.**

## Samantanın ermənipərəst “dosyesi”



Lokal xarakterli antiterror tədbirlərini “Azərbaycanın hərbi əməliyyatı”, Qarabağ iqtisadi rayonunu isə “Dağlıq Qarabağ” adlandıran Pauer qeyd edib ki, bunun nəticəsində 100 mindən çox insan öz evlərini tərk edərək qonşu Ermənistana köçmək məcburiyyətində (?) qalıb: “ABŞ Dağlıq Qarabağdan olan etnik ermənilərə dəstəyini davam etdirir. Birləşmiş Ştatlar bu gün həmin köçkünlərə kömək üçün əlavə 4 milyon dollar ayırdığını elan etdi. Biz məcburi köçkünləri qəbul etdiyinə görə (?) Ermənistan hökumətinə minnətdarıq və ehtiyac duyduqları yardımın göstərilməsində onlara dəstəyimizi davam etdirəcəyik. 2020-ci ildən bəri ABŞ-ın Dağlıq Qarabağın ehtiyacları üçün humanitar yardımının ümumi məbləği 28 milyon dollar təşkil edir. Bu yaxınlarda Ermənistana səfərim zamanı mən Dağlıq Qarabağdan köçkün düşmüş bir çox insandan öz evlərini tərk etməyin nə qədər çətin və ağrılı olduğunu birbaşa eşitdim. Biz onlara və onları Ermənistanda geniş qəlblə qəbul edənlərə dəstək olmaq üçün əlimizdən gələni edəcəyik”.

*(ardı 11-ci səhifədə)*

## ABŞ Ermənistanı Rusiyadan qopara biləcəkmi?



**Azərbaycan Ordusunun bu il sentyabrın 19-da beynəlxalq hüquqa tam əməl edərək öz suveren ərazimizdə 24 saatdan az davam edən və mülki əhali arasında heç bir itki olmadan gerçəkləşdirdiyi lokal antiterror əməliyyatları ilə suverenliyini bərpa etdikdən sonra ilk vaxtlar ABŞ, sanki, Avropa Birliyinin bu məsələdəki qərəzli mövqeyini, Fransanın Ermənistanı ədalətsizcəsinə dəstəkləmək istiqamətində göstərdiyi canfəşanlığı kənardan izləyən bir dövlət təsəvvürü yaradırdı. Əslində, Birləşmiş Ştatların məsələyə belə bir münasibət bəsləməsi tam normal sayılırdı.**

ABŞ müstəqillik illərində Azərbaycanla daha yaxın münasibətlərin formalaşmasına, qarşılıqlı əməkdaşlığın inkişafına müəyyən qədər can atmışdı. Birləşmiş Ştatlar regionda Azərbaycanın transmilli enerji layihələrinin, ilk növbədə, Bakı–Tibilisi–Ceyhan Boru Kəmərinin və Cənub Qaz Dəhlizinin uğurla reallaşdırılmasına dəstək vermişdi.

*(ardı 3-cü səhifədə)*

## Qara dənizdən Avropaya “yaşıl enerji” platforması



**Qara dənizin dibi ilə kabel xəttinin çəkilməsi layihəsinin reallaşdırılması regionda və Avropada yeni əməkdaşlıq mühitinin formalaşmasına səbəb olub.**

Bu, 2022-ci il dekabrın 17-də Buxarest şəhərində “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in imzalanmasından sonra reallaşıb. Beləliklə, Prezident İlham Əliyevin vurğuladığı kimi, artıq dörd ölkənin–Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın iştirakı ilə daha geniş format yaradılıb: “Həmin layihənin Məşvərət Şurasının ilk iclası fevralda Bakıda, ikinci toplantısı isə bu yaxınlarda – ötən ay Tbilisidə keçirilib. Bu layihə yüksək dəyərləndirilib və o sadəcə, “Qara dəniz kabeli” kimi deyil, həm də Xəzərdəki külək enerjisi stansiyalarından Avropaya enerjini ötürən vasitə kimi qəbul edilib”.

*(ardı 7-ci səhifədə)*

## Rasim Ocaqovun xatirəsi anılıb

Səhifə ⇨ 9

## Yaxın Şərq: Silahlar 4 gün susacaq...



Səhifə ⇨ 11

## Qarabağ meşələri də soyqırımına məruz qalıb





Səhifə ⇨ 9

# Prezident İlham Əliyev SPECA ölkələrinin sərgisinin açılışında iştirak edib





(əvvəli 1-ci səhifədə)

SPECA-nın yaradılmasının 25 illiyi münasibətilə təşkil olunan sərgi Azərbaycanın xüsusi təşəbbüsü ilə keçirilir. Bakı Ekspo Mərkəzinin 4 min kvadratmetrlik sahəsini əhatə edən sərgidə ancaq SPECA ölkələrinin stendləri yer alır. Həmin stendlərdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistandan dövlət müəssisələrinin və özəl şirkətlərin məhsullarının nümunələri nümayiş olunur. Bütün stendlər Azərbaycan tərəfindən vahid dizayn formatında quraşdırılıb.

Prezident İlham Əliyev "Azərxalça" ASC tərəfindən hazırlanan "Bizi birləşdirən dəyər" instalyasiyasının üzərindəki ağ örtüyü götürməklə sərginin rəsmi açılışını etdi. Bu instalyasiya SPECA ölkələrinin əməkdaşlıq əlaqələrini əks etdirir.

Sərginin Azərbaycan Milli Stendinin mərkəzində "Made in Azerbaijan" markası ilə istehsal olunan məhsullar nümayiş etdirilir. Burada Azərbaycanın 33 şirkətinin istehsal etdiyi spirtli içkilər, meyvə şirələri, konservləşdirilmiş məhsullar, qənnadı məmulatları, qurudulmuş meyvələr, süd məhsulları, kosmetik vasitə çeşidləri və "ABAD"çı sənətkarların hazırladıqları əl işləri təqdim olunur.

Dövlətimizin başçısı Azərbaycan Milli Stendi ilə tanış oldu.

Milli Stend iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, rəqəmsal inkişaf və innovasiyalar, nəqliyyat infrastrukturu və tranzit, energetika, müdafiə sənayesi, turizm, işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı kimi istiqamətləri əhatə edir.

Müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına məlumat verdi ki, sərgidə nazirliyin müəssisələrində istehsal olunan müxtəlif növ atıcı silahlar, yaxınməsafəli döyüş vasitələri, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, pilotsuz uçuş aparatları və s. olmaqla 88 adda müdafiə təyinatlı məmulat nümayiş etdirilir. Əvvəlki sərgilərdən fərqli olaraq bu sərgidə ilk dəfə yeni yaradılan "AH-12,7" iriçaplı pulemyot da təqdim olunur.

Sərginin İqtisadi inkişaf blokunda ölkəmizin zəngin iqtisadi resursları, dayanıqlı və inklüziv inkişaf modeli, rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində görülən işlər, iqtisadi-ticari əlaqələrə dair məlumatlar əksini tapıb. Blokda, həmçinin davamlı makroiqtisadi sabitliyi şərtləndirən amillərlə yanaşı, ölkə iqtisadiyyatına cəlb edilən investisiyalar, dövlətin dəstək mexanizmləri və reallaşdırılan dövlət proqramları barədə məlumat verilir. Qeyd olunur ki, son 20 il ərzində ölkəmizdə ümumi daxili məhsul istehsalı (ÜDM) 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, yəni ÜDM-in real həcmi 4 dəfə artıb. Dövlət büdcəsinin gəlirləri isə 2002-ci ildə olduğu 0,9 milyard dollardan 20 dəfədən çox artaraq 18,01 milyard dollara yüksəlib. Stenddə ölkəmizin iqtisadi inkişaf göstəricilərindən bəhs edən videoçarx da nümayiş olunur.

Sənaye blokunda isə ölkədə aparılan uğurlu sənayeləşmə siyasəti nəticəsində əldə olunan nailiyyətlər, zəngin xammal resursları, sənaye istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi, sənayenin inkişaf istiqamətləri, eləcə də sənaye parkları və məhəllələri, qeyri-neft sənayesinin dinamik inkişafı barədə məlumatlar əks olunub. Diqqətə çatdırılır ki, 2002-2023-cü illərdə ölkədə 4 min 95 sənaye müəssisəsi yaradılıb. 2002-ci ildə sənayedə istehsal həcmi 1,6 milyard dollar olduğu halda, 2022-ci ildə bu rəqəm 10,4 milyard dollara çatıb.

Sərgidə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində görülən işlər, ərazilərin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyanın, dayanıqlı inkişafının təmin olunması, ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdən bəhs edilir. 2021-2023-cü illər ərzində 10 min kvadratkilometrdən çox ərazidə bərpa-quruculuq işlərinin həyata keçirilməsinə dövlət büdcəsindən 7 milyard dollar vəsait ayrılıb.

Bu sərgidə Ümummilli lider Heydər Əliyevə həsr edilən xüsusi stend də nümayiş olunur. Burada Ulu öndərin 100 illiyinə həsr olunmuş videoçarx, Ulu öndərin həyat və yaradıcılığından bəhs edən 11 kitabın nüsxəsi və markalar təqdim edilir. Bundan başqa, stenddə "AzerGold" QSC tərəfindən Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə istehsal edilən "100 il və onun fövqündə bir irs" adlı qızıl sikkə də nümayiş olunur.

Dövlətimizin başçısı SPECA-nın digər üzv dövlətlərinin - Qazaxıstanın, Qırğızıstanın, Tacikistanın, Türkmənistanın və Özbəkistanın stendləri ilə tanış oldu. Stendlərdə üzv ölkələrdə istehsal olunan məhsullar nümayiş etdirilir.

Qeyd edək ki, sərginin məqsədi iştirakçı ölkələrin iqtisadi potensialını nümayiş etdirmək, birlikdə qarşılıqlı faydalı tərəfdaşlıq imkanlarını müzakirə etmək və üzv dövlətlər arasında regional iqtisadi əməkdaşlığı gücləndirməkdir.

Mərkəzi Asiya ölkələri və Azərbaycan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik vahid tarixi-mədəni və coğrafi regiondur. Son dövrlər dövlət başçılarının qarşılıqlı səfərləri ölkələr arasında iqtisadi əməkdaşlığın ikitərəfli formatda inkişafını təşviq edir. Eyni zamanda, bu regionun beynəlxalq arenada artmaqda olan nüfuzu ölkələrimizin sıx əməkdaşlığını labüd edir. Bu baxımdan SPECA çərçivəsində fəaliyyət çoxtərəfli əməkdaşlığın inkişafı üçün münbit zəmin yaradır.

Sərgidə İqtisadiyyat Nazirliyi və "Azərxalça" ASC-nin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Triptix" üçlü xalça kompozisiyası təqdim olunur. Burada, həmçinin "44" kolleksiyası da nümayiş olunur. Bu xovlu xalça kolleksiyası "Qasımuşağı" adlı Qarabağ xalçasının nadir kompozisiyasından ilhamlanaraq məhdud sayda - 44 ədəd toxunub.

Sərginin açıq sahəsində iştirakçı ölkələr tərəfindən nəqliyyat vasitələri, həmçinin sənaye, kənd təsərrüfatı, müdafiə sənayesi, energetika və digər sahələrə aid avadanlıqlar və ağır texnikalar nümayiş olunur.

Sərginin sonunda sahibkarlar üçün biznes-forumun keçirilməsi nəzərdə tutulur.

# "İlham Əliyev. İnkişaf – məqsədimizdir" çoxcildliyinin 128-ci kitabı çapdan çıxıb

**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 128-ci kitabı çapdan çıxıb.**




Çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin may ayını əhatə edir. May ayının mühüm hadisələrindən biri Prezident İlham Əliyevin ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ulu öndər Heydər Əliyevin100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda keçirilmiş IV beynəlxalq konfransda iştirakı olub. Həmin beynəlxalq konfransın materiallarının davamı yeni kitaba daxil edilib. Dövlətimizin başçısı konfrans iştirakçılarının çoxsaylı suallarını cavablandırıb. Türk Dövlətləri Təşkilatının inkişafında Azərbaycanın roluna dair suala Azərbaycan Prezidentinin verdiyi cavab onun digər fikirləri kimi aktuallığı, uzaqgörən hədəfləri və bəşəri məzmunu ilə diqqət çəkir.

Sitat: Türk Dövlətləri Təşkilatına gəldikdə, Azərbaycan təşkilatın bütün fəaliyyəti dövründə fəal olub. Vaxtilə onun adı fərqli olsa da, biz çox fəal olmuşuq. Bəzi vaxtlarda müəyyən ölkələrin fəallığı dəyişib, bəziləri daha fəal, digərləri az fəal olub. Elə dövr olub ki, Zirvə toplantıları müntəzəm keçirilməyib. Lakin Azərbaycan hər zaman mühüm ölkə olaraq qalıb. Təsadüfi deyil ki, təşkilatın yaradılması haqqında Bəyannamə 10 il bundan əvvəl Naxçıvanda qəbul edilib. Təşkilatın adının dəyişdirilməsi onun, sadəcə, necə adlandırılması məsələsi deyil. Burada mahiyyətdən söhbət gedir və biz görürük ki, təşkilata üzv olan ölkələr səylərini səfərbər etməlidir. Biz təşkilatı daha vacib beynəlxalq oyunçuya çevirə bilsək hər kəs bundan faydalanar. Bizim geniş coğrafiyamız, bəzi ölkələrin böyük təbii sərvətləri, o cümlədən enerji ehtiyatları, bəzi ölkələrin güclü hərbi imkanları var. Beləliklə, biz bütün bu səyləri birləşdirsək, qlobal səviyyədə ciddi oyunçu görə bilərik. Hesab edirəm ki, təşkilat qlobal güc mərkəzlərindən biri ola bilər və olmalıdır.

Prezident İlham Əliyev may ayında, həmçinin Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Füzuli, Kəlbəcər və Şuşaya səfərlər edib, yaşayış məhəllələrinin, kəndlərin, məktəblərin, xəstəxanaların və digər obyektlərin təməlqoyma mərasimlərində, eyni zamanda, bir sıra obyektlərin açılışında iştirak edib, eləcə də bərpa-quruculuq işlərinin gedişi ilə tanış olub. Bütün bunlar haqqında informasiyalarla 128-ci kitabda tanış olmaq mümkündür.

Bu kitaba Prezident İlham Əliyevin Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Şuşadan Azərbaycan xalqına müraciətinin mətni daxil edilib. Müraciətdə Azərbaycan xalqının müdrik xalq olduğu, ən çətin anlarda düzgün qərar qəbul etdiyi vurğulanır.

Sitat: Sabitlik inkişaf üçün, təhlükəsizlik üçün əsas şərtdir. Bu gün dünyanın bir çox yerlərində sabitlik pozulub, müharibələr, münaqişələr, toqquşmalar baş verir, o, ölkələri geriyə atır. Hər kəs bunu Azərbaycanın timsalında əyani şəkildə gördü ki, sabitlik olan yerdə əmin-amanlıq da var, inkişaf da var. Sabitlik üçün isə güclü lider lazımdır. Azərbaycan xalqı Heydər Əliyevin simasında güclü lideri seçərək, öz taleyini ona etibar etdi və yanılmadı. Azərbaycan xalqı müdrik xalqdır, dəfələrlə ən çətin anlarda, ən çətin dövrlərdə yeganə düzgün müdrik qərar qəbul edir".

Çoxcildliyin 128-ci kitabında Prezident İlham Əliyevin Belçika Krallığına, Rusiya Federasiyasına işgüzar, Litva Respublikasına isə rəsmi səfərlərinə, eləcə də Azərbaycana gəlmiş İsrail Dövlətinin Prezidenti İshaq Hersoq ilə görüşünə, "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı"nın imzalanmasına, liderlərin birgə mətbuata bəyanatlarla çıxışlarına aid materiallar yer alıb.

Yeni nəşrə Azərbaycan Prezidentinin bir sıra dövlətlərin ölkəmizə səfər etmiş parlament sədrləri ilə görüşlərinə dair informasiyalar daxil edilib.

Oxucu bu kitabda Prezident İlham Əliyevin "Bakı Ürək Günləri" VIII Beynəlxalq Konqresin, "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda beynəlxalq konfransın, Bakı Enerji Həftəsinin iştirakçılarına müraciətlərinin mətnləri ilə də tanış ola bilər.

Yeni nəşrdə Prezident İlham Əliyevin Rəcəb Tayyib Ərdoğana zəng edərək prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik etməsi haqqında informasiya, bu münasibətlə Türkiyə liderinə məktubunun mətni də verilib.

Prezident İlham Əliyev may ayında Bakı Ekspo Mərkəzində XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – "Caspian Agro" və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi "Interfood Azerbaijan" sərgiləri ilə tanış olub, Taekvondo üzrə XXVI Dünya Çempionatının açılış mərasimini izləyib. Bütün bunlar haqqında informasiyalar da yeni kitabda yer alıb.

"Azərnəşr" tərəfindən buraxılan 128-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Britaniya ilə əməkdaşlıq məmnunluq doğurur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının xarici işlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət naziri Leo Dokertini qəbul edib.**

Dövlətimizin başçısı Leo Dokertinin Azərbaycana səfərinin ikitərəfli, eləcə də regional gündəliyin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.

Azərbaycanın gözəl bir ölkə olduğunu qeyd edən Leo Dokerti səfərindən məmnunluğunu ifadə etdi, ölkələrimiz arasında əlaqələrin zəngin tarixə malik olmasından qürur hissi duyduğunu vurğuladı.

Qonaq Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının regional sülh və sabitliyin təmin olunmasına hər hansı bir töhfə vermək işinə müsbət yanaşdığını dedi, uzun illərdir Azərbaycan ilə çox mühüm siyasi, iqtisadi, ticarət və enerji əlaqələrinin mövcudluğu ilə fəxr etdiklərini bildirdi.

Leo Dokerti vurğuladı ki, Azərbaycan yalnız Avropanın mühüm enerji təchizatçısı deyil, həm də Cənubi Qafqazın vacib, məsuliyyətli ölkəsidir və Azərbaycansız Avropada sülh və təhlükəsizlik olmazdı.

Prezident İlham Əliyev iqtisadi əlaqələrimizin enerji sahəsində əməkdaşlıqdan başladığını, BP şirkəti ilə uzun illər səmərəli və qarşılıqlı etimada əsaslanan işbirliyinin həyata keçirildiyini qeyd etdi.

Dövlətimizin başçısı ölkəmizə qoyulan investisiyaların bizə göstərilən inamı nümayiş etdirdiyini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev qeyd etdi ki, BP şirkətinin uzun illər bundan əvvəl Azərbaycanda fəaliyyətə başlaması ölkəmizin iqtisadi inkişafında və respublikamızda investisiya layihələrinin həyata keçirilməsində mühüm rol oynayıb. Dövlətimizin başçısı hazırda Azərbaycan-BP əməkdaşlığının bərpaolunan enerji sahəsi ilə bağlı yeni mərhələyə qədəm qoyduğunu dedi və bunun region üçün çox gözəl nümunə olduğunu bildirdi.

Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən Azərbaycan Prezidenti bir daha Leo Dokertinin səfərinin əlaqələrimizin inkişafı ilə bağlı məsələlər barədə fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətinə toxundu.

Dövlətimizin başçısı vurğuladı ki, antiterror tədbirləri nəticəsində Azərbaycan suverenliyini tam şəkildə bərpa etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün artıq hər hansı əngəlin olmadığını deyərək ölkəmizin regional sülh gündəliyini dəstəklədiyini, sülh müqaviləsi və iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün Azərbaycanın Ermənistan ilə dialoqa hazır olduğunu vurğuladı.

Qonaq da öz növbəsində ölkəsinin bu prosesə dəstək verməyə hazır olduğunu ifadə etdi.

# Azərbaycan İslam həmrəyliyinə sadiqdir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Tahanı qəbul edib.**

Azərbaycan Prezidenti Baş katib Hissein Brahim Tahanın İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin əmək nazirlərinin 5-ci Konfransında iştirakının önəmini qeyd edərək onunla bundan əvvəlki görüşlərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev hər zaman Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyə görə İslam Əməkdaşlıq Təşkilatına, İslam həmrəyliyinə görə təşkilatın üzv dövlətlərinə bir daha təşəkkürünü bildirdi. İki ay əvvəl Azərbaycanın öz suverenliyini tam şəkildə bərpa etdiyini vurğulayan dövlətimizin başçısı Qarabağ münaqişəsinin artıq tarixdə qaldığını qeyd etdi.

Azərbaycanın da daim İslam həmrəyliyi prinsipinə sadiq olduğunu vurğulayan Prezident İlham Əliyev ölkəmizin təşkilatın fəaliyyətini dəstəklədiyini, o cümlədən quruma könüllü maliyyə ianələrini bundan sonra da davam etdirəcəyini diqqətə çatdırdı.

Azərbaycanın, eyni zamanda, Qoşulmama Hərəkatına dördillik uğurlu sədrlik etdiyini deyən dövlətimizin başçısı ölkəmizin sədrliyi dövründə təsisat çərçivəsində aparılan fəaliyyətlər barədə də məlumat verdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində bu günlərdə Bakıda dekolonizasiya mövzusuna həsr olunmuş mötəbər tədbirlərin keçirildiyini, ölkəmizin bu prosesə öz dəstəyini verdiyini qeyd edərək, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin də tarixən müstəmləkəçilikdən əziyyət çəkdiklərini, bu mövzunun təşkilatın gündəliyində saxlanmasının vacibliyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təmin etməsi, eyni zamanda, Qarabağda aparılan bərpa-quruculuq işləri ilə əlaqədar təbriklərini çatdırdı.

Baş katib İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətinin dəstəklənməsini, Azərbaycanın könüllü maliyyə ianələrini çox yüksək qiymətləndirdi, bunun təşkilat üçün vacib olduğunu qeyd etdi. Hissein Brahim Taha qəbula, İslam Əməkdaşlıq Təşkilatının tədbirlərinin mütəmadi olaraq Azərbaycanda keçirilməsinə və ölkəmizin maliyyə dəstəyinə görə Prezident İlham Əliyevə şəxsən təşəkkürünü bildirdi.

Görüşdə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanda keçirilən tədbirlərin, o cümlədən Təşkilata üzv ölkələrin əmək nazirlərinin V konfransının və Bakıda İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin yaradılmasının əhəmiyyəti qeyd olundu.

**AZƏRTAC**

# ABŞ Ermənistanı Rusiyadan qopara biləcəkmi?

## Onun Azərbaycana təhdidləri bu məqsədə xidmət edir

**(əvvəli 1-ci səhifədə)**

Həqiqətən, ABŞ Cənubi Qafqazda kimin kim olduğunu yaxşı bilir. O, zəngin enerji resursları olan, Qərblə Şərqi ən qısa yollarla birləşdirən Azərbaycanın regiondakı rolunu ona sərf etdiyi dərəcədə qiymətləndirir. Çünki yaxşı məlumdur ki, Birləşmiş Ştatların dünyanın hər yerində siyasi və iqtisadi maraqları onun aparıcı hədəfləridir. Bu dövlət üçün digər ölkələrdə demokratiya, insan haqları, söz azadlığı kimi dəyərlərin, belə demək mümkünsə, sonrakı sırada dayanması heç də təəccüblü deyil. Baxın, bu gün ABŞ-la əməkdaşlıq edən və bəzilərinin isə tərəfdaş olduğu Yaxın Şərq ölkələrinin hansı birində demokratiya və insan haqları dəyərləri yer alır? Demək olar ki, heç birində. Bu konteksdə Azərbaycan sivil tələblərin yüksək səviyyədə qorunduğu və söz azadlığının tam təmin edildiyi bir ölkədir. Heç kim elə düşünməsin ki, ABŞ-ın aidiyyatı dövlət qurumları Azərbaycanda bu dəyərlərin hansı səviyyədə olmasından xəbərsizdir. Əgər Azərbaycan daxilində özünü müxalif adlandıran şəxslər ölkə daxilində və xaricində hökumətin ünvanına haqsız danışığı, istədikləri tənqidi tirajlaya bilirlərsə, bu, demokratiya, söz azadlığı deyilmi?



Bu gün, məsələn, Rusiya, Belarusiya və Orta Asiya ölkələrində hansı müxalifət öz hakimiyyətinə qarşı belə davrana bilər? Deməli, ABŞ-ın "Azərbaycanda insan haqları tapdanır, söz azadlığı yoxdur" deyən müəyyən dairələrinə əsl həqiqətin nədən ibarət olduğu yaxşı məlumdur. Ona görə də bütün bu məqsədli gedişlər Azərbaycanı öz təsirində saxlamaq cəhdləri kimi dəyərləndirilməlidir.

**Bəs Qarabağda xatırlatdığımız antiterror əməliyyatlarından sonra Birləşmiş Ştatların birdən-birə hadisələrin gedişatındakı "müşahidəçi" mövqeyinin belə kəskin dəyişməsinin kökündə nələr dayanır? Nədən ABŞ Cənubi Qafqazda söz sahibi olan Azərbaycana ərazi bütövlüyünü təmin edən addımlar atdığına görə belə bir qısqanc münasibət sərgiləyir?**

**Əvvəla,** Azərbaycan bölgədə 30 ildən çox mövcud olan qanlı separatizmin kökünü yüksək peşəkarlıqla keçirilən antiterror əməliyyatı ilə kəsərək bu problemin çözülməsində heç kimin, o cümlədən dünyanın ən böyük gücü olan Birləşmiş Ştatların da köməyinə ehtiyacı olmadığını sübut etməklə qısqanclıq obyektinə çevrildi. Böyük güclər kiçik və zəif saydıqları ölkələrin "sərbəst davranışlarını" bir qayda olaraq özbaşınalıq adlandırıb həzm edə bilmirlər.

**İkincisi,** Azərbaycan erməni separatizmi kimi bir qara yaranı öz bətnindən uğurla kəsib atdıqdan və bununla da Ermənistanla arasındakı münaqişəni bitirdikdən sonra, Qərbin, o cümlədən Birləşmiş Ştatların bu regionda hərbi iştirakına yer qoymadı. Bu isə "qoca qitə"ni və ABŞ-ı ciddi narahat edir. Yəni, indi ortaya bir sual çıxır: Qərb, başda Birləşmiş Ştatlar olmaqla, bu regiona hərbi qüvvə yerləşdirməklə kimi kimdən qoruyacaq? Digər tərəfdən, Azərbaycanın Qarabağdan öz istəyi ilə getmiş erməniləri geri çağırdığı bir şəraitdə, bölgədə hər hansı bir hərbi kontingentin iştirakına hansısa ehtiyac qalmır.

Bütün bunlar Qərbin və onun başında dayanan ABŞ-ın ilk baxışda nəzərə çarpan gizli istəyidir. Əslində, bundan daha böyük maraqlar var. Birləşmiş Ştatların əsas məqsədi Rusiyanı Cənubi Qafqazdan çıxartmaqdır. Bu gün ABŞ-ın Azərbaycana qarşı sərgilədiyi qərəz və qəzəbin kökündə dayanan ən başlıca gerçək də bundan ibarətdir.

Müstəqillik illərində Ermənistan–Azərbaycan arasında yaranmış müharibə vəziyyətinin aradan qaldırılmasına Qərbin və onun aparıcı gücü olan Birləşmiş Ştatların ikili standartlarla nəzərə çarpan yanaşması bizi həmişə narahat edib. ABŞ ölkəmizlə sıx əlaqələr yaratmaq istəsə də, torpaqlarımızın erməni hərbi birləşmələrinin işğalı altında olduğu illərdə haqq-ədalətin bərpası üçün, demək olar ki, heç nə etmədi. Əksinə, bu ölkə işğalçı Ermənistana və Qarabağdakı erməni separatçılarına bu və ya digər formada dəstək verdi.

Bir sözlə, ABŞ Birinci Qarabağ müharibəsində ərazilərimizin işğalı, azərbaycanlıların doğma yurdlarından qovulması, torpaqlarımızda soyqırımı aktlarının törədilməsi nəticəsində minlərlə vətəndaşımızın həyatını itirməsi kimi qanlı aksiyaların ortada olmasına baxmayaraq, 30 il ərzində heç bir obyektiv, ədalətli fəaliyyət göstərmədi. BMT TŞ-nin gözdən pərdə asmaq üçün qəbul etdiyi Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz və dərhal çıxarılmasına dair 4 qətnaməsinin icra olunmamasına 30 il göz yumdu. Amma İraq və Əfqanıstana BMT TŞ-nın sanksiyası olmadan, qurama səbəblər gətirərək hərbi müdaxilə etdi. Qarabağ münaqisəsi Birləşmiş Ştatların beynəlxalq müstəvidə yaranan problemlərin həllində nə qədər ədalətsiz mövqe tutduğuna yaxşı nümunədir. Bu ölkə ədaləti yox, maraqları üstün tutur. Birləşmiş Ştatlar dünyanın hər yerində özünün strateji və təbii ki, ondan irəli gələn iqtisadi maraqları uğrunda çarpışır.

Bu gün ABŞ-ın Ermənistana bu qədər "isti" münasibətinin kökündə də "erməni sevgisi" dayanmır. Birləşmiş Ştatların bizim coğrafiyada əsas marağı Qərblə Şərqi birləşdirən yolların keçdiyi Cənubi Qafqaz regionundan Rusiyanı sıxışdırıb öz hegemonluğunu möhkəmlətməkdir. Ancaq bu nə qədər realdır? Bu gün Ermənistan iqtisadiyyatının, az qala, 80 faizə yaxın hissəsi birbaşa və dolayı yolla Rusiyanın nəzarətindədir. Ermənistanın dövlət sərhədlərini Rusiya hərbiçiləri qoruyur, işğalçı dövlətin ərazisində Rusiyanın hərbi bazası var.

Bütün tarix boyu onun-bunun alət kimi istifadə etdiyi ermənilər və onların yaratdıqları qondarma Ermənistan dövləti ilk baxışda, Rusiyadan imtina edib, Qərbə sığınan oyuncaq qurum kimi görünsə də, əslində, o bu gün öz xislətinə uyğun davranaraq, Qərblə Rusiya arasında ifritə oyunu çıxarır. Bu gün Ermənistan Rusiyanı Qərbin tətbiq etdiyi sanksiyalardan yayındıran əsas ölkələrdən biridir. Bir tərəfdən, ABŞ-a sığınmaq istəyən Ermənistan, digər tərəfdən Birləşmiş Ştatların Rusiyaya tətbiq etdiyi sanksiyaları çeynəyərək, bu ölkəyə ixracı qadağan olunmuş məhsulları xarici ölkələrdən alıb başqa ad altında satır. Ən dəhşətlisi isə odur ki, Ermənistanın bu ikili oyununu ABŞ və AB ölkələri yaxşı bilir və guya, bununla bağlı Ermənistana bir neçə dəfə də "xəbərdarlıq" edib. Görünən bir də odur ki, paradokslarla dolu bir münasibətlər müstəvisində ortada olan ancaq maraqlardır.

Birləşmiş Ştatlar hesab edir ki, indi Rusiyanı Cənubi Qafqazdan çıxartmaq üçün tarixi bir şans yaranıb və bu tezliklə baş verə bilər. Bu isə hələlik inandırıcı görünmür. Qərbin Cənubi Qafqazda nümayiş etdirdiyi canfəşanlıq sonda bu regionda ikinci Ukrayna olaylarının yaşanmasına aparan yola bənzəyir. Ermənilər Qarabağda məğlubiyyəti həzm edə bilməsələr də, deyəsən, bu dəfə onları sona qədər anlatmaq missiyasını Rusiya yerinə yetirməli olacaq.

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru,***
***professor***

# ABŞ-ın "demokratiyaya dəstəyi" antidemokratik dəyənəkdir

**Azərbaycan KİV-ində ABŞ-ın təxribatçı əməllərinə həsr olunmuş analitik material dərc edilib. "ABŞ təxribat texnologiyalarını yeniləyir" başlığı ilə təqdim olunmuş yazıda bildirilir ki, "super dövlət" özünün hədəfində olan ölkələri nəzarətdə saxlamaq üçün yeni metodlar tətbiq edir. "Demokratik inkişafa dəstək vermək" adı altında yaratdığı çoxsaylı fondları, o cümlədən, dünyaca məşhur olan USAID, NED, Marşall, İREX və onlarca digər beynəlxalq institutları ekspansiya alətinə çevirir. Həmin qurumlar "demokratik inkişafa dəstək vermək" adı altında "qrantlar" ayırırlar. Reallıqda isə həmin "qrantlar" vasitəsilə marginal qrupları şirnikləndirir, legitim hakimiyyətlərə qarşı ictimai etimadsızlığa sövq edirlər.**

Uzun illər ərzində tətbiq edilmiş bu "texnologiya"da yenilik ondan ibarətdir ki, ABŞ fondları indi təkcə partiyaların və siyasi fiqurların üzərində iş qurmurlar. Milli düşüncəyə zidd olan, cəmiyyətin harmoniyasını pozan bütün marginal qrupları dəstəkləyirlər. Məsələn, Azərbaycanda "radikal feminizm"in təşkilatlandırılıb aktivləşdirilməsini təşkil edirlər. "Radikal feminizmi" təşkilatlandırmaqla milli mənliyini itirmiş qrup formalaşdırırlar. Elə "çevik və işgüzar qrup" formalaşdırılır ki, anti-Azərbaycan təyinatlı istənilən məsələdə istifadə olunub effekt verə bilirlər.

Bu həmin qrupdur ki, üzvləri 2019-cu ildə Milli Qəhrəman Mübariz İbrahimovu təhqir etməyə cəhd göstərdilər. Yaxud, 2020-ci ilin oktyabrında – 44 günlük Vətən müharibəsi ərəfəsində Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın irəli sürdüyü avantürist kampaniyanı dəstəklədilər. Belə bir nəticə alınır ki, Qərb institutları "radikal feminizmi" dəstəkləyib təşkilatlandırmaqla ölkədə ictimai-siyasi proseslərə müdaxilə etmək üçün yeni mexanizm hazırlayırlar.

Məqalə müəllifləri bildirirlər ki, indi eyni modelin digər sahələrdə də tətbiq edildiyi müşahidə olunur. QHT, KİV sektorunda "qrantla" ələ alınmış marginal qruplar formalaşdırılır. Məqalədə ABŞ-nin belə mürtəce siyasətinə alət olmuş çox sayda QHT və KİV-in, həmçinin fiziki şəxslərin adları çəkilir.

Məsələnin bu tərəfinə toxunmuruq. Əlbəttə, adıçəkilən şəxslərin açıqlama vermək, bəyanat yaymaq, barələrində deyilən faktları təkzib etmək hüquqları vardır. Azərbaycan hüquqi və demokratik ölkə olduğu üçün onların haqları tanınır. Amma bu, məqalənin ümumi ruhunu şübhə altına almır. ABŞ-nin hədəf ölkələrdə təxribatçı əməllər törətməsini inkar etmir. QHT və KİV sektorunda təmsil olunduğumuz üçün müşahidə edirik ki, ABŞ emissarları bu sektorda bölücülük salırlar. Legitim təşkilatlarla deyil, marginal qruplarla iş aparırlar. Azərbaycanda 3 mindən yuxarı qeyri-hökumət təşkilatı mövcuddur. Minlərlə KİV qurumu fəaliyyət göstərir. Onların fəaliyyətləri legitimdir, qanunlar əsasında qurulub.

ABŞ təmsilçiləri "demokratik inkişafı dəstəkləyən layihələri" həmin QHT və KİV-ə deyil, qeyri-legitim, qeyri-qanuni təşkilatlara yönəldirlər. Məqsəd bəllidir. Əlbəttə, milli şüura sahib, legitim, qanuni təşkilat heç zaman ictimai əxlaqa zidd addım atmaz. "Qrant" almaq xatirinə milli maraqlarını satmaz. Qeyri-legitim, marginal qruplar üçün isə bu prinsip əsas deyil.

ABŞ hədəf ölkələrdə iş metodlarını nə üçün dəyişib? Nə planlaşdırır, məqsədi nədir? USAİD-in direktoru Samanta Pauer 2022-ci ilin iyun ayında "Demokratiya doktrinası"nın "yenilənmiş elementləri"ni açıqlayıb. Bildirib ki, yenilənmiş "Demokratiya doktrinası" imkan yaradır ki, ABŞ "demokratiya işartıları"nın göründüyü ölkələrə diqqətini artırsın. "Demokratiyanın işartıları" deyəndə 4 mühüm əlamətin adını çəkib. Onlardan biri "demokratik" üsyanların dəstəklənməsidir.

Strategiyadan belə nəticə çıxır ki, ABŞ USAİD vasitəsilə xarici ölkələrə nəzarəti gücləndirmək niyyətindədir. Samanta Pouer tərəfindən elan edilmiş bu proqram, əslində, ABŞ-nin yeni "məxməri inqilablar" strategiyası kimi də xarakterizə oluna bilər. Deməli, qarşıdakı illərdə dünyanı yeni təlatümlər gözləyir.



ABŞ-nin yenilənmiş "Demokratiya doktrinası" və "anti-korrupsiya strategiyası"nda USAID, jurnalistlər və QHT üçün yeni imkanlar nəzərdə tutulub. Korrupsiyaya qarşı mübarizədə fəallıq göstərən "jurnalist" və "QHT" üçün "Çempionlar mükafatı" hazırlanır. Həmçinin onların ehtiyaclarını ödəmək üçün yeni fond təqdim edilir. USAİD-in koordinasiyası ilə qurulan "Korrupsiyaya Qarşı Mübarizə Fondu" KİV və QHT-yə, araşdırmaçı agentlərə yardım göstərir. Fondun ilkin maliyyəsi 424 milyon dollardır.

Bu mövzunun diqqətçəkici məqamı odur ki, USAİD-in rəhbəri olan Samanta Pouer qatı ermənipərəstdir. Övladının adını "erməni genosidi"nin şərəfinə adlandırıb. Ruben Vardanyanla yaxın dostluq münasibətində olub. Onun tədbirlərində çıxış edib. Ruben Vardanyan Qarabağda həbs edilib Bakıya gətirləndən sonra Samanta Pouer özü şəxsən Bakıya gəlib, danışıqlar aparıb. Samanta Pouerin sifariş verdiyi "Demokratiya doktrinası"nı hazırlayan işçi qrupun rəhbəri də ermənidir.

Azərbaycanla Ermənistan arasında sülh quruculuğu prosesində ABŞ-nin oynadığı neqativ rol göstərdi ki, "super dövlət" hansısa maraqlar naminə Ermənistanın tərəfini saxlayır. Prosesi rəqib ölkənin maraqları çərçivəsində yekunlaşdırmaq üçün səy göstərir. Bu baxımdan məqalədə dərc edilmiş faktlar, şübhəsiz, diqqətlə araşdırılacaq və ölçü götürüləcəkdir.

***Müşfiq ƏLƏSGƏRLİ,***
***media eksperti***

**ABŞ-ın və Avropa İttifaqının Azərbaycan və Ermənistan arasında sülh danışıqları təşkil etmək cəhdləri hazırda, faktiki olaraq, uğursuzluq zolağındadır. Bunun fonunda Bakı İrəvana birbaşa təmaslara keçməyi təklif edib. Hər halda, ölkəmizin Xarici İşlər Nazirliyinin iki gün əvvəlki açıqlamasını məhz belə qiymətləndirmək mümkündür.**

Bəli, Azərbaycan vasitəçilər formatından uzaq dayanmağa üstünlük verir. Bunun səbəbini bir qədər sonra aydın görəcəksiniz. İndilik onu vurğulayaq ki, hazırda ən başlıca məsələ Ermənistanın Azərbaycanın "tet-a-tet" danışıqlar təklifinə hansı reaksiyanı verməsidir. Yəni, top İrəvanın tərəfindədir.

Ermənistanın isə konkret cavabı yoxdur və çox güman, olmayacaq da. Üstəlik, ehtimal var ki, İrəvan Bakının təklifindən, ümumiyyətlə, imtina etsin! Yeri gəlmişkən, imtinanın ilk işartıları artıq görünməkdədir. Fikrimizin təsdiqi üçün iki məqamın üzərində dayanaq.

***

**Birinci məqam** Ermənistanın Xarici İşlər Nazirliyinin dünənki açıqlamasıdır. Orada təkbətək danışıqlar məntiqinə dair yalnız bir cümlə var. Guya, Ermənistan, vaxtilə, delimitasiya və demarkasiya ilə məşğul olan birgə komissiyanın iclasının şərti sərhədə yaxın ərazidə keçirilməsini təklif edibmiş. Belə çıxır ki, Azərbaycan həmin təkliflə razılaşmayıb. Halbuki, məsələnin qoyuluşu düzgün deyil. Çünki Azərbaycan–Ermənistan şərti sərhədinin yasiya da məhz bundadır. Arşakyanın nə dediyinə diqqət yetirək: "Effektivliyi etimad yaratmayan platformalar varsa, Ermənistan həmin platformalardakı danışıqlarda iştirak etmir. Platforma etimad yaradırsa, biz də iştirak edirik. Ermənistanın hər hansı effektiv platformadan qaçmaq arzusu yoxdur. Bu, onun üçün faydalı deyil".

***

Göründüyü kimi, həm Ermənistan XİN, həm də vitse-spiker Arşakyan Bakının birbaşa danışıqlar təşəbbüsünü, kifayət qədər, incə düşünülmüş hiyləgərliklə geri çevirir. Bu, şübhəsiz ki, İrəvanın müstəqil xarici siyasət yürütmək imkanında olmadığının növbəti təsdiqidir. Eyni zamanda, Arşakyanın açıqlaması İrəvanın səmimiyyət anlayışından uzaqlığının göstəricisidir. Sanki hansısa vasitəçilik missiyasının xidmətini nəzərə almaq, ölkə üçün daha effektiv imiş, nəinki birbaşa danışıqlar aparmaq. Yəqin, yanaşmadakı absurdluğun fərqinə vardınız.

Elə isə digər məqamlara da diqqət yetirərək, bildirək ki, İrəvan Moskvanı effektiv danışıqlar platforması saymır.

# Ermənistanın bir yolu var: Azərbaycanla sülh!

## Bakının ikitərəfli təmas təklifindən İrəvanın imtinası onun müstəqil olmadığını göstərir



Ermənistan tərəfində Avropa İttifaqının müşahidəçiləri var. Yəni, maraqlı tərəflər. Deməli, ölkənin xarici siyasət idarəsinin açıqlaması əvvəlki manipulyasiya xəttinin davamıdır. Yəni, bilmək olmur ki, Ermənistan Azərbaycanın təkbətək danışıqlar təklifinə razıdır, yoxsa yox. Həm də ona görə bilmək olmur ki, Ermənistan XİN özünü ölkəmizi ittiham məntiqinə kökləyib. Halbuki, ortada konkret "hə" və ya "yox" cavabı olmalı idi.

Bəli, rəsmi İrəvan özünün gecikmiş təkliflərini ehkamlaşdırmaq yolunu tutaraq, Azərbaycanın birbaşa danışıqlar formatını inkar edir, Qarabağa təcavüz, bölgə ermənilərinin qovulması ritorikasına baş vurur. Üstəlik, bildirir ki, guya, Azərbaycan sülh prosesinə qayıtmaq imkanını və beynəlxalq tərəfdaşların mövcud istiqamətdəki səylərini açıq şəkildə görməzlikdən gəlməyə davam edir.

Qeyd edək ki, Ermənistan XİN danışıqlar üzrə əvvəl səsləndirdiyi üç prinsipi yenidən gündəmə gətirir. Bunlar heç bir qeyri-müəyyənlik olmadan ölkələrin bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanımaları və ona hörmətlə yanaşmaları, 1991-ci ilin Alma-Ata Bəyannaməsi və ən son qanuni sovet xəritələri əsasında növbəti demarkasiyanın həyata keçirilməsi, dövlətlərin suverenliyinə və yurisdiksiyasına, bərabərlik və qarşılıqlılıq prinsiplərinə tam hörmət əsasında regionda infrastrukturun açılmasıdır.

Əlbəttə, Azərbaycan yuxarıdakı üç prinsipi heç vaxt inkar etməyib, sadəcə öz mövqeyini irəli sürüb. Mövqe isə eyni zamanda, Ermənistanın öhdəliklərinə əməl etməsinin vacibliyinə əsaslanır. Digər tərəfdən, Ermənistan Qərb danışıqlar formatında yuxarıdakı prinsiplərə yeni çalarlar qazandırmaq məntiqini irəli sürür. ABŞ və Aİ-nin davranışları göstərir ki, onlar İrəvanın avantürist niyyətlərini əsas götürürlər. Ancaq "tet-a-tet" danışıqlarda belə bir manipulyasiya cəhdinə yer olmayacaq. Çox güman ki, elə bu səbəbdən Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev region məntiqini irəli sürür. Onun çağırış məzmunu daşıyan sözlərinə görə, sülhün kökləri regiondadır, Vaşinqtonda, Brüsseldə, Parisdə deyil və Ermənistan bunu başa düşməlidir.

***

**İkinci məqama** keçid alaq. Görünən budur ki, Azərbaycanın çağırışı Ermənistana çatmır. Daha doğrusu, İrəvan çağırışı düzgün qiymətləndirmək istəmir. Bunun Ermənistan XİN-in açıqlaması qismində ilk göstəricisini diqqətə çatdırdıq. Mövcud kontekstdə ölkə parlamentinin sədr müavini Akop Arşakyanın söylədikləri daha konkretdir. O bəyan edib ki, Ermənistan heç vaxt danışıqlardan yayınmayıb. Lakin vitse-spiker danışıq platformalarının əhəmiyyətindən söz açmağı yaddan çıxarmayıb. Elə manipul-

İlk növbədə ona görə ki, Rusiyanın münaqişədə vasitəçi deyil, tərəf olduğunu iddia edirlər. Erməni siyasi dairələri son zamanlar vurğulayırlar ki, Rusiya Azərbaycanla birlikdə Zəngəzur dəhlizini tələb edərək, İrəvana qarşı ərazi iddiası irəli sürür. Yerdə qalır, Qərb platforması ki, onu da effektivliyini şübhələndirən Azərbaycandır. Əvvəldə də bildirdik ki, bu müstəvinin ermənipərəstliyə köklənddiyi artıq gün kimi aydındır.

Deməli, ilk baxışdan da ən yaxşısı ikitərəfli təmaslardır. Ancaq Ermənistan danışıqların Qərb formatını aktivləşdirməkdə israrlıdır. Ermənistan XİN özünün gecikmiş sülh təkliflərini məhz buna görə göndərir. Məqsəd həm də vaxt udmaqdır. Bu yerdə baş nazir Nikol Paşinyanın "sülh sazişi tərəflərin inamsızlığı səbəbindən imzalanmır" fikrini diqqətə çatdıraq. Nəzərə alaq ki, bu il mayın 14-də və iyulun 15-də Brüsseldə keçirilmiş üçtərəfli görüşlərdə Azərbaycanla sülhün üç əsas prinsipinin razılaşdırıldığını deyən erməni hökumət rəhbərinin indi həmin üç prinsip üzrə təkbətək danışıqlara razı olmasında elə bir problem olmamalıdır. Amma problem var.

Problem həm də ona görə var ki, Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması üzrə əsas razılıqların Qərb platformasında əldə olunmasına baxmayaraq, hazırda baş verən proseslər onun göstərir ki, kollektiv Qərbi təmsil edən ABŞ və Aİ həmin razılaşmaları özünün anti-Rusiya seqmentinin tərkib hissəsi kimi görüb. Yəni, daha çox Bakı və İrəvan arasındakı durumun normallaşmasını deyil, bu normallaşma müstəvisində Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq məramını əsas götürür. Azərbaycan isə avantüralara meydan vermir və təkbətək danışıqlar formatını irəli sürməklə, prosesi kənar təsirlərdən uzaq tutmağa çalışır.

***

Qeyd edək ki, Ermənistanın Azərbaycanın təklifi ilə razılaşmaması üçün bəhanələri də var. Məsələn, erməni siyasi dairələri bildirirlər ki, Azərbaycan indiyədək üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyib, Qarabağa qarşı, guya, təcavüz gerçəkləşdirib, mövcud səbəbdən onun ikitərəfli təmas təklifinə etibar etmək olmaz. Yəni, mütləq üçüncü tərəf olmalıdır ki, təminat yaransın (?). Əlbəttə, biz də eyni şeyi, özü də çox haqlı olaraq Ermənistanla bağlı deyir və bildiririk ki, İrəvan öhdəliklərinə əməl etmir. Amma ölkəmiz sülhün əldə olunmasının vacibliyinə də köklənir, paralel surətdə sülh gündəliyini kənar təsirlərdən, regional ambisiyalardan qorumaq xəttini irəli sürür. Bir daha bildirək ki, hazırda top Ermənistanın tərəfindədir. İrəvanın bir yolu var: Bakının təklifi ilə razılaşmalı və imza atmalıdır!

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Şər koalisiyası: iştirakçılar eyni, maraqlar isə fərqlidir

## Azərbaycana qarşı 30 illik ədalətsizliyin anatomiyası




(əvvəli 1-ci səhifədə)

### Bizə kimlər yalan demədi?

BMT, ATƏT-in Minsk qrupu, Bişkek protokolu, Madrid prinsipləri, daha sonra münaqişənin uzun müddətə dondurulmasına hesablanmış "təşəbbüslər", sayını itirdiyimiz "dəyirmi masa"lar, vasitəçilərin tərəflərlə "məşvərətləri". İndi isə münaqişəyə son nöqtəni qoyacaq sülh müqaviləsinin imzalanmasına mane olan yeni "vasitəçilik missiyaları". Təkcə Ermənistan–Azərbaycan cəbhəsində deyil, bütövlükdə Cənubi Qafqaz məkanında böyük güclərin gizli və aşkar iştirakı ilə törədilən çoxsaylı qarşıdurmalara qədər ermənilərin "Qarabağ planı" hazır idi. İndi "Qırmızı imperiya" dediyimiz SSRİ-nin yuxarı eşelonuna soxulmuş ermənilər, İrəvandakı separatçılar, xaricdəki zəngin daşnak lobbisi və diasporları keçən əsrin 80-ci illərinin sonlarından etibarən bir cəbhədə birləşərək 1923-cü ildə Azərbaycan SSR-in tərkibində yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Ermənistan SSR-ə birləşdirilməsi üçün hərəkətə keçmişdilər. 1988-1989-cu illərdə Ermənistanın müxtəlif şəhər və rayonlarında yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovuldu. Onlardan 216 nəfər vəhşicəsinə qətlə yetirildi, 1154 nəfər isə yaralandı. Onlar erməni zorakılığından canlarını qurtarmaq üçün Azərbaycana sığınmaq məcburiyyətində qaldılar.

1990-cı illərin əvvəlində isə Ermənistan Azərbaycana qarşı açıq hərbi təcavüzə, faktiki surətdə, elan olunmamış müharibəyə başladı. Hələ SSRİ dönəmində Ermənistanda müharibəni təbliğ edən ifrat millətçi, şovinist qüvvələrin hakimiyyətə yiyələnməsi, onların Moskvanın birbaşa hərbi dəstəyi ilə başladığı Birinci Qarabağ müharibəsi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin işğalı ilə nəticələndi. Özünü SSRİ-nin varisi elan etmiş və bu gün Bakı və İrəvan arasında sülh danışıqlarında əsas vasitəçi sayılan məhz Rusiyanın dəstəyi ilə ermənilər Azərbaycan türklərinə qarşı etnik təmizləmə həyata keçirdilər. 1992-ci ilin fevralında azərbaycanlılara qarşı törədilmiş Xocalı soyqırımı hayların alnına vurulmuş və heç vaxt təmizləyə bilməyəcəkləri qara ləkədir. Bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. 1994-cü ilin mayında Bişkekdə imzalanmış protokolla Ermənistan və Azərbaycan arasında atəşkəs elan olunandan sonra ermənipərəst Qərbin tərəfləri "barışdırmaq üçün" geçili təşəbbüsləri başladı.

Bu yalançı və riyakar vasitəçilik təşəbbüslərinin "lokomotivi" rolunda 1992-ci ildə Belarus paytaxtında yaradılmış və iki il sonra ABŞ, Fransa və Rusiya elçilərinin təmsil olunduğu ATƏT-in Minsk qrupu çıxış edirdi. Sonradan məlum olacaq ki, bu qrupun əsas missiyası tərəflər arasında sülhə nail olmaq deyil, münaqişəni konservləşdirərək, ömrünü Azərbaycan xalqı Qarabağı "unudana qədər" uzatmaq və işğalı "sənədləşdirmək" imiş. Həmin 1993-cü ilin aprel ayında BMT Təhlükəsizlik Şurasının Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Kəlbəcər rayonundan silahlı qüvvələrini qeyd-şərtsiz çıxarmasına dair dörd qətnaməsinə İrəvan sonadək əməl etmədi, o sənədlər 27 il kağız üzərində qaldı.

### Səbrimizin də həddi vardı

2001-ci il aprelin 3-də ABŞ-ın Florida ştatının Ki-Uest şəhərində Dövlət katibi Kolin Pauellin vasitəçiliyi ilə ATƏT-in Minsk qrupunun həmsədrləri, Azərbaycan Prezidenti Heydər Əliyev, Ermənistan prezidenti Robert Koçaryanın birgə görüşü təşkil edildi. İntəhası, orada verilən vədlərin heç birinə əməl edilmədi. Bütün bunları Bakı "ədalətsizlik serialı" kimi gündəliyinə qeyd edirdi. 2007-ci ildə İspaniyanın paytaxtında imzalanan Madrid prinsipləri Azərbaycanın "Dağlıq Qarabağ"dan kənardakı 5 rayonunun qaytarılmasını nəzərdə tutsa da, bu razılaşma da İrəvan tərəfindən laqeydcəsinə kənara atıldı. Amma daha belə davam edə bilməzdi. Azərbaycanın səbri 2020-ci ilin sentyabrına qədər yetdi. Sonra baş verənləri bizim üçün reallığa çevrilmiş yuxu, ermənilər üçün isə hələ də altından çıxa bilmədikləri "soyuq duş" effekti adlandırmaq olar.

"Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazilərini özü döyüş meydanında, hərbi gücdən və BMT Nizamnaməsinin özünümüdafiə hüququna dair 51-ci maddəsi ilə qanunun bizə verdiyi imkandan yararlanaraq işğaldan azad etdi. Ümid edirdik ki, bundan sonra Ermənistan öz öhdəliklərinə əməl edəcək və hərbi kontingentinin qalan hissəsini Azərbaycan ərazisindən çıxaracaq. Lakin bu, baş vermədi. Biz, demək olar ki, 3 il çox səbirli olduq, Ermənistana beynəlxalq vasitəçilərlə mesaj göndərməyə çalışdıq ki, bu, qəbuledilməzdir. Hətta Azərbaycanın kiçik bir hissəsində qanunsuz separatçı rejimin olmasına imkan verə bilmərik. Qeyd etdiyim kimi, işğal olunmuş ərazilərin böyük hissəsi 2020-ci ildə azad edilmişdi. Əfsuslar olsun ki, Ermənistan hökuməti bizə qulaq asmadı, Qərbdəki məsləhətçilərinə qulaq asdı. O məsləhətçilər isə onlara yaxşı məsləhət vermədilər. Onların məsləhəti hərbi kontingenti bizim ərazimizdə mümkün qədər çox saxlamaqdan ibarət oldu". – Azərbaycan Prezidenti İlham Əliyev münaqişənin son üç ilinin xronologiyasını Bakıda səfərdə olan yalnız İraq Prezidentinin diqqətinə çatdırmırdı. O, bu mesajı həm 44 günlük müharibədə, həm də 24 saatlıq antiterror əməliyyatında haqq etdiyi məğlubiyyətin acısını dadmış İrəvana və onun şərqli-qərbli tərəfdaşlarına ünvanlayırdı. İlk növbədə isə bu xəbərdarlıq İrəvana pis məsləhətlərini verməkdə davam edən Fransanın və son vaxtlar anti-Azərbaycan koalisiyasının "zərbəçisinə" çevrilmiş ABŞ-ın diqqətinə çatdırılırdı. Bəli, otuz il əvvəl olduğu kimi, bu gün də erməniyə "daydayılıq", Bakıya isə "xəbərdarlıq" edənlərin cərgəsi eyni aktorlardan ibarətdir.

Fəqət ortada olan fərq üzdə özlərini ermənilərin təəssübkeşi kimi göstərən həmin imperialist güclərin Cənubi Qafqazda dəyişən maraqlarıdır. İndi onlar transmilli enerji daşıyıcısına və kommunikasiya qovşağına çevrilmiş bölgədən "əzəli rəqibləri" Rusiyanı kənarlaşdırmaq üçün Ermənistandan "maşa" kimi istifadə etməyi hədəfləyiblər. Tarixən müstəmləkə siyasətinə köklənən həmin güclərin məqsədlərinə çatmaqdan ötrü dünyanın müxtəlif yerlərində törətdikləri müharibələrin, lokal münaqişələrin qurbanları, adətən, müsəlmanlar olub. Bu mənada hər iki ölkənin ərazi bütövlüyünə və suverenliyinə əsaslanan ədalətli sülhə tərəfdar olduğunu elan edən Azərbaycanı Ermənistana "hərbi təcavüzə hazırlaşmaqda" ittiham etməsi "səlibçi" koalisiyanın altməqsədini ortaya qoyur. Yəni, koalisiyanın qarşısında Cənubi Qafqazda planlarını həyata keçirməyə mane ola biləcək tək bir güc var – Azərbaycan!

### Ədalətsizliyə "hüquqi" don biçənlər

Bu gün Azərbaycan ermənilərin və onların havadarlarının törətdikləri vəhşiliklər nəticəsində dağıdılmış yurd yerlərində yeni evlər tikir, rahat yollar salır. İntəhası, İrəvan və onun qərbli tərəfdaşları, 30 il əvvəl olduğu kimi, bu gün də ölkəmizə qarşı siyasi şantaj yolunu tutublar. ABŞ Senatı erməni lobbisinin cənfəşanlığı nəticəsində torpaqlarını işğaldan və işğalçılardan təmizləyən Azərbaycana qarşı 31 il əvvəl qəbul etdiyi, 2001-ci ildən isə tətbiqi dayandırılan "Azadlığa dəstək aktı"na 907-ci düzəlişi yenidən qüvvəyə mindirib. İşğalçı ilə işğala məruz qalanın yerini "dəyişik salan", ədalətsizliyə beynəlxalq hüquqdan "don biçən" yenə həmin qüvvələrdir.

Rəsmi İrəvanın və onun havadarlarının Azərbaycana qarşı irəli sürdüyü əsassız, uydurma ittihamların, qarayaxmaların yaşı azı yüz ildir. "Miatsum" virusuna yoluxmuş hay ideoloqları, onların Qərbdə, okeanın o tayında "züytutanları" bir əsrdən çoxdur ki, Azərbaycanı, eyni zamanda, Türkiyəni şantaj etməklə məşğuldurlar. Xəstə təxəyyüllü ideoloqlardan birinin – Zori Balayanın adı, yəqin ki, oxucularа tanışdır. Hələ SSRİ dövründə "Ocaq" adlı kitabında tarixi saxtalaşdıran, Azərbaycana və Türkiyəyə qarşı iddialar irəli sürən həmin Balayan Ermənistanın "türklərin mühasirəsində" yaşadığını iddia edirdi. Bu cani 1996-cı ildə nəşr olunan "Ruhumuzun canlanması" adlı əsərində Xocalı soyqırımına haqq qazandırır, bu şəhərdə azərbaycanlılara qarşı soyqırımı törətdiklərini fəxrlə etiraf edirdi. Nə yazıq ki, bu daşnakın xəstə düşüncəsini otuz il əvvəl olduğu kimi, indi də dəstəkləyənlər var. Onlar bununla mənsub olduqları etnosun yalan və riyakarlığa söykənən adət-ənənəsini davam etdirirlər. Zorilərin, silvaların yalanları ayaq açıb, Fransadan ABŞ-dək geniş çıxsa da, Cənubi Qafqazda yerimeyəcək. Çünki ermənilərdən fərqli olaraq, Qafqazda sözünə və əməlinə sahib durmayanların, yalana, harama, saxtakarlığa əl atanların cəzasını verməyi bacaran Azərbaycan türkləri var.

### Haqq işimizə şübhə edənlər

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan üç il bundan əvvəl Zəfər paradında iştirak etmək üçün Bakıya yola düşməzdən əvvəl keçirdiyi mətbuat konfransında bu sözləri demişdi: "Öz ərazilərində apardığı 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu Dağlıq Qarabağı işğaldan azad edib. Qarabağda 30 ildir davam edən ədalətsizlik başa çatdı". 2003-cü ildə prezident seçildiyindən sonra "Zəngin və qüdrətli Azərbaycan uğrunda" çağırışını edən İlham Əliyevin zərgər dəqiqliyi ilə düşünülmüş, məqsədyönlü daxili və xarici siyasəti sayəsində Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesi uğurla həyata keçirildi. Məhz 20 il əvvəl Azərbaycanın bütün sahələr üzrə, xüsusilə də, xarici siyasətində yeni mərhələyə keçidinin təməli atıldı. Həmin mərhələni xalqın ürəyindən keçən sonluğa çatdıran, onun yuxularını gerçəyə çevirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev oldu. Dövlət başçımızın dediyi kimi, "həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam".

Bu gün Azərbaycan dünyanın geosiyasi coğrafiyasında özünəməxsus yeri və sözü ilə seçilən bir dövlətdir. Ona bu mövqeyi qazandıran arxalandığı xalqın qətiyyətli lideri, bütün hərbi-siyasi müstəvilərdə dediyi sözün arxasında duran, ona əməl edən, XXI əsrdə Cənubi Qafqazda tarixin təkrini ədalət cığırına salmağı bacaran İlham Əliyevdir. Bu həqiqəti qəbul etməkdən ötrü dönüb arxada buraxdığımız 30 ilə, dirçəlişlə müşayiət olunub Zəfərlə yekunlaşan son 20 ilə baxmağımız yetər.

*İmran BƏDİRXANLI*
*XQ*

**Ekspert rəyi**



**Tofiq ABBASOV,**
**siyasi analitik**

Otuz il əvvəl Cənubi Qafqazda gedən proseslərə münasibət bu gün də dəyişməyib. O zaman Azərbaycana qarşı işğal siyasətinə başlayan Ermənistan yüz minlərlə insanımıza qaçqın və məcburi köçkün aqibəti yaşatdı. Azərbaycanın bu qanunsuzluq, açıq-aşkar hərbi təcavüz, etnik təmizləmə ilə bağlı dünya birliyinə çağırışlar edəndə, bizə məhəl qoyan olmadı.

Ortada "öz aranızda dil tapın" xarakterli formal yanaşmalar vardı. BMT-nin Ermənistanın təcavüzünə qarşı dörd qətnaməsinin icrası üçün heç kəs, o cümlədən beynəlxalq istitutlar əlini ağdan-qaraya vurmadı. Müharibədən sonra ermənilərin yeni hərbi təxribatları, mina fəaliyyəti ilə bağlı müraciətlərinə də münasibət bildirilmədi. Biz burada, sözün həqiqi mənasında, həm "səlib yürüşü"nün işartılarını, həm də Qərbdən ötrü dini və milli amillərin öndə gəlməsinin şahidi oluruq. Bəs bir müqayisə aparaq: MDB məkanında bir neçə etnoərazi münaqişəsi var. Abxaziya, Cənubi Osetiya, Dnestryanı və sair. Bunlardan hansı biri ilə bağlı ABŞ senatında, yaxud Dövlət Departamentinin nəzdindəki qurumlarda diskussiya aparıblar, dinləmələr keçiriblər? Heç birində! Onlar yalnız və yalnız Ermənistan–Azərbaycan münaqişəsi ətrafında məlum prosesi "qaynadırlar". Məqsədləri gərginliyi artıraraq, yenidən müharibə ab-havasını bölgəyə gətirməkdir. Yolverilməz yanaşmadır.

Azərbaycan həmin prosesin arxasında kimlərin durduğunu yaxşı bilir. Bəli, bu qüvvələr Ermənistan vasitəsilə Cənubi Qafqaza girmək, buraya hərbi kontingentlərini yerləşdirmək istəyirlər. Kollektiv Qərb qlobal gündəlikdə çoxdan yoxdur, amma Qafqaz məsələsində onlar mövcuddur. ABŞ-ın, Fransanın, Avropa İttifaqının mövqeləri üst-üstə düşür. Onlar Rusiya, İran və Türkiyə amilinə görə bölgəyə girməyə çalışırlar. Əlbəttə ki, Azərbaycan buna imkan verməyəcək. Yaxşı bilirik ki, onların məqsədi zəngin sərvətə malik müsəlman bölgələrində əsas rıçaqları ələ keçirməkdir. Bizi "zəif bənd" sayırlar. Fəqət, onların Cənubi Qafqazda yeni neokolonializm siyasəti alınmayacaq!

**Görəsən, nə lazımdır, yaxud nə olmalıdır ki, Ermənistan dövləti açıq-aşkar Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə yollarını ayırdığını bəyan etsin? Rəsmi İrəvan KTMT ilə münasibətlər məsələsində sanki ər evindən küsüb ata ocağına dönən gəlinə bənzəyir. Bəlkə, gözləyir ki, gəlib ona xahiş-minnət eləsinlər. Hərçənd, xahiş-minnətə oxşar şeylər də nəzərə çarpır.**

# Ermənistan – KTMT "izdivac"ının son akkordları

## İrəvan qurumun Minsk sammitində iştirakdan imtina etdi



Məsələn, noyabrın 23-də Belarusun paytaxtı Minskdə KTMT-nin növbəti sammitinin gündəliyinə Ermənistana yardım məsələsi də salınıbmış. Amma qurumun baş katibi İmanqali Tasmahambetovun sammitin ev sahibi Belarus Prezidenti Aleksandr Lukaşenkoya dediyinə görə, İrəvan məsələnin gündəlikdən çıxarılmasını istəyib: "Erməni tərəfi, bütün digər müttəfiqləri bu qərarı dəstəkləsələr də, sənədə heç bir maraq göstərmədilər və üstəlik, işimizin yekun hissəsində onun ümumiyyətlə gündəlikdən çıxarılmasını xahiş etdilər".

Yəni, bu, o deməkdir ki, Ermənistan KTMT-nin köməyinə ehtiyac duymur, yaxud qurumdan kömək gözləmir. Bu öz yerində. Lukaşenko isə daha əvvəl Ermənistanın baş naziri Nikol Paşinyanı Minskə təşrif buyurmağa razı salmaq istəmişdi. Amma "gəlin" çox hövcdir, necə deyərlər, tutduğunu buraxmır, bəlkə də, naz eləyir. Yeri gəlmişkən, Lukaşenko Paşinyana, təxminən, onun naz eləyən vaxtının keçdiyini də xatırladıb. Deyib ki, münasibətləri gərginləşdirmək yolu tutmasın. Amma Belarus liderinin söylədikləri erməni baş nazirin bir qulağından girib digərindən çıxıb.

Hazırda məlum olur ki, nəinki N. Paşinyan, ümumiyyətlə, Ermənistanın yüksək rütbəli məmurlarından heç kəs KTMT-nin Minsk sammitinə qatılmayacaq. Götürək, xarici işlər naziri Ararat Mirzoyanı və müdafiə naziri Suren Papikyanı. Onlar da baş nazir kimi, Belarusun paytaxtına getməkdən imtina ediblər. Özü də imtinalarını, kifayət qədər, ictimailəşdiriblər. Məsələn, Ermənistan XİN məlumat yayıb ki, Belarus tərəfinin təşəbbüsü ilə noyabrın 21-də ölkənin xarici işlər naziri A.Mirzoyan Belarusun xarici işlər naziri Sergey Aleynik ilə telefonla danışıb. Diqqət yetirin, yəni, danışmağı biz istəməmişik, onlar istəyiblər, – məntiqi qabardılıb. Erməni nazir deyib ki, Minskə gedə bilməyəcək. Niyə və nə üçün? Səbəb açıqlanmayıb. Müdafiə naziri S.Papikyanın da KTMT-nin Müdafiə Nazirləri Şurasının Minskdə dünən keçirilmiş iclasına qatılmamasının səbəbi göstərilmir. Yalnız o bildirilir ki, Ermənistan MN-nin rəsmi nümayəndəsi yerli mediianın sualarını cavablandırarkən, Papikyanın Belarusa getməyəcəyini vurğulayıb.

Bu arada Ermənistan parlamentinin vitse-spikeri, hakim "Vətəndaş sazişi" partiyasının üzvü Akop Arşakyan deyib ki, Ermənistan KTMT ilə əməkdaşlığa son qoymaq məsələsini müzakirə etmir. Onun sözlərinə görə, ölkə qurumun yardım paketindən imtina edib, çünki təşkilat özünün məsuliyyət zonasının harada başlayıb, harada bitdiyini qeyd etmir. "Təəssüf ki, bu məsuliyyət zonası və Ermənistanın konkret xəritəsi qeydə alınmayıb. Problem budur", – deyən Arşakyanın KTMT-ni ələ saldığı aşkardır. Onun dediklərindən belə çıxır ki, qurumdakıların Ermənistan ərazisi ilə bağlı təsəvvürləri yoxdur. Ağır ittihamdır, eyni zamanda, başqa sözlə desək, başından yekə danışmaqdır. Arşakyan sanki ağıl öyrədir. Təxminən belə: əvvəlcə Ermənistanın xəritəsini öyrənsinlər, sonra baxarıq. Aydındır ki, Ermənistan heç nəyə baxan deyil. Daha doğrusu, baxdığına baxıb. O da tam aydındır ki, Qərbdəki dostları Paşinyana Rusiyanın olduğu istenilən yerə getməmək tapşırığını veriblər. İndi Nikolun komandası həmin tapşırığın icrası ilə məşğuldur. Özü də can-başla.

Məlumdur ki, ötən il KTMT-nin Ermənistan-Azərbaycan sərhədinə müşahidə missiyası göndərəcəyi güman edilirdi. Hərbi-texniki əməkdaşlıq baxımından da addımlar nəzərdə tutulurdu. Amma hazırda erməni iqtidarı tamam başqa havalardadır. Onu da deyək ki, İrəvan KTMT-dəki nümayəndəsi Viktor Biyaqovu geri çağırıb və onun yerinə yenisini təyin etməyib.

Bəli, Ermənistanda hesab edirlər ki, amorf qurum kimi göstərdikləri KTMT-dən fərqli olaraq, ABŞ-nin və Fransanın təmsil olunduğu Qərb bir çağırışla Azərbaycanın mümkün təcavüzünü dayandıra bilər. Erməni siyasi ekspertləri isə bildirirlər ki, 2020-ci ilin 44 günlük müharibəsindən sonra baş vermiş hərbi toqquşmalar zamanı "qüdrətli Qərb dünyası"nın bu çağırışının niyə özünü büruzə verməmədiyi ritorik sualdır. Onların qənaətincə, hazırkı Qərb Azərbaycana təsir imkanından məhrumdur. Amma Ermənistanın, belə demək mümkünsə, yerli qərbliləri əmindirlər ki, sözügedən çağırış tələb olunacaq. Çünki İrəvan Rusiyanın Cənubi Qafqaz regionundan sıxışdırılması vədini yerinə yetirir. Mövcud xüsusda Qərbin Ermənistana ciddi dəstək göstərəcəyinə, sözdən əmələ keçəcəyinə böyük ümid var.

İrəvanın KTMT-dən incikliyinin konkret səbəblərindən söz açaq. Daha doğrusu, bunu Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan desin. O bildirir ki, ölkəsi ötən ilin sentyabrında "Azərbaycanın Ermənistana təcavüzü ilə bağlı təşkilatdan aydın siyasi qiymət gözləyirdi", amma KTMT, guya Ermənistanın işğal olunmuş ərazisinin bir hissəsinin qurumun təsir zonası olduğunu açıqlamadı: "KTMT bəyan etmədi ki, bu 200 kvadratkilometrlik ərazi sərhədlərim daxilindədir, himayəm altındadır. Yaxud öhdəliklərini yerinə yetirmək iqtidarında olmadığını qəbul etmədi. Bundan sonra biz öz qərarımızı verəcəyik".

Deməli, E.Marukyanın fikrincə, İrəvanın hərbi-siyasi blokda sonrakı iştirakı ilə bağlı yekun qərarın çıxarılması, KTMT-nin bu günlərdə Minskdə keçirilən sammitinin "Azərbaycanın təcavüzünə" siyasi qiymət verib-verməməsindən asılı olacaq. Belə bir şeyin mümkün olmadığını nəinki Marukyan, ümumən Ermənistanda hər kəs çox yaxşı bilir. Yaxşı bilirlər ki, Azərbaycan KTMT-də təmsil olunan hər bir ölkə ilə ayrılıqda sağlam əlaqələrə malikdir. Amma, ermənilər buna baxmayaraq, avantüraya gedirlər, yerinə yetirilməsi mümkünsüz məsələləri qabardır, bəhanə axtarırlar.

Bəli, "axtaran tapar" deyimi ilə yanaşsaq, Ermənistan da KTMT ilə yollarını ayırmaq üçün bəhanələr tapır. Daha bir bəhanədən söz açaq. General-polkovnik Anatoli Sidorovun rəhbərlik etdiyi KTMT missiyasının Ermənistana göndərilməsini yada salaq. A.Sidorov təmsil olunduğu qurumun yanaşmasını belə təqdim etmişdi: "Bizim nizamnaməmizdə, sənədlərdə və KTMT müqaviləsində yazılıb ki, siyasi və diplomatik üsullara üstünlük verilir. Ona görə də biz hələlik heç bir qılıncı qınından çıxarmırıq və problemləri mümkün qədər sülh yolu ilə həll etməyə çalışırıq".

Deməli, hazırda obrazlı desək, ər evindən incik düşmüş gəlinin boşanma qərarını verməsi üçün kifayət qədər bəhanələri var. Ancaq görünür, bunu etmək üçün cəsarəti və qətiyyəti yoxdur. Bəlkə də daha münasib vaxtı gözləyir. Uyğun vaxt nə zaman yetişəcək, bunu söyləmək çətindir. Amma hazırkı KTMT–Ermənistan "izdivacının" yalnız kağız üzərində olduğu da aşkardır və bu aşkarlıq Ermənistanın anti-Rusiya xəttinin mühüm tərkib hissəsini təşkil etməkdədir.

Sonda "Axırıncı aşırım" filmindən bir epizodu yada salaraq, mövzunu tamamlayaq. Söhbət Qəmlonun Kərbəlayi İsmayıla dillərdə əzbər olan müraciətindən gedir: "Abbasqulu bəyin nazı ilə çox oynayırıq ha, Kərbəlayi". İndi həm Rusiya, həm də onun hakim rol oynadığı KTMT Ermənistanın nazı ilə çox oynayır, şıltaqlıqlarına dözür. Görəsən, nə vaxtadək?

*Ə.RÜSTƏMOV*
*XQ*

# Xalq xilas yolunu Ümummilli liderin Qayıdışında görürdü

## (YAP-ın Naxçıvan təsis konfransı barədə xatirə)

**Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi ilk dənəmdə tanınmış əmək qəhrəmanlarından biri olmuş, 3 dəfə ardıcıl Azərbaycan Ali Sovetinin deputatı olmuş, taxılçılıq sahəsində əldə etdiyi nailiyyətlərə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş Baba Səmədov Ulu öndərlə dəfələrlə görüşüb.**



**Prezident təqaüdçüsü olan məşhur kombaynçı-mexanizator, el ağsaqqalı Baba kişi Şəki rayonunun Turan kəndində yaşayır. Ulu öndəri daim böyük ehtiramla, minnətdarlıqla yad edir:**

– Unudulmaz dahi şəxsiyyətlə ilk görüşüm 1975-ci ildə Mərkəzi Komitədə olub. Görüşdə Azərbaycan Respublikasının Ali Sovetinə deputatlığa 15 namizəd iştirak edirdi. Müxtəlif peşə sahibləri idik. Heydər Əliyev hər birimizlə ayrıca görüşərək, şəxsi işlərimizi gözdən keçirdi. Növbə mənə çatanda Şəkidə taxılçılığın vəziyyəti ilə maraqlandı. Dedim ki, hər şey yaxşıdır, ancaq yağış yağsa, daha yaxşı olacaq. Gülüb dedi ki, narahat olma, öyrənmişəm, Şəkiyə də yağış yağır. Sonra mən deputat seçildim, Mərkəzi Komitənin üzvü oldum, qurultaylarda nümayəndə kimi iştirak etdim. Görüşlərimiz intensiv xarakter aldı...

**Baba Səmədov Ümummilli liderlə 1992-ci ilin noyabrında Naxçıvanda olan görüşünü də iftixarla xatırlayır:**

– Cəmi bir il idi ki, müstəqillik əldə etmişdik. Şuşanın və Laçının işğalının kədərini yaşamaqla yanaşı, Xalq Cəbhəsinin ölkədə yaratdığı hərc-mərcliyin, özbaşınalıqların əsiri olmuşduq. Belə bir vaxtda xalqımızın yeganə ümidi Naxçıvan Milli Məclisinin sədri olan dünya şöhrətli siyasətçi Heydər Əliyevə idi. Ancaq adları "cəbhəçi" olan, özləri isə müharibənin davam etdiyi cəbhədən çox uzaq olan yeni hakimiyyət xalqın Heydər Əliyevlə əlaqə yaratmasına mane olur, Naxçıvanı sərt blokadada saxlamağa çalışırdı. Buna baxmayaraq, yerlərdə hələ rəsmi olaraq təsis olunmamış Heydər Əliyev partiyasının – Yeni Azərbaycan Partiyasının özəkləri yaradılırdı. Biz də Şəkinin Turan qəsəbəsində gizli şəkildə partiyanın Şəki, Qax, Zaqatala və Balakən rayonları üzrə ilk təşkilatını yaratmışdıq.

Bir gün əslən bizim qəsəbədən olan, o zaman Kənd Təsərrüfatı Nazirliyində işləyən Eldar Əliyev mənə dedi ki, Baba dayı, hazırlaş, sabah Naxçıvana, Heydər Əliyevlə görüşə gedirik, ancaq bu iş məxfidir, heç kəs bilməsin. O, hər ehtimala qarşı bizim üçün haradansa Naxçıvan Konserv zavoduna ezamiyyət sənədləri də hazırlatmışdı. Beləcə, 3 yoldaş – Eldar, ilk təşkilatımızın sədri, məktəbimizin pedaqoqu Tehran müəllim və mən pasportlarımızı da götürüb, Bakıya yola düşdük. Binə Aeroportunda xüsusi təyinatlılar Naxçıvana getməyimizə mane olmağa çalışdılar. Onda mənim ağlıma gəldi ki, Sosialist Əməyi Qəhrəmanı imtiyazımdan istifadə edim. Ancaq sovetdənqalma bu titula omonçular tərəfindən nə cür münasibət göstəriləcəyini bilməsəm də, yol sənədlərimizə qəhrəmanlıq sənədimi də əlavə edib, yaxınlaşdım onlara. Baxdılar ki, həmin sənədlərdir, yalnız "Qızıl ulduz" vəsiqəsi əlavə olunub, bir az döyükdülər. Uzun çək-çevirdən sonra kassirə tapşırdılar ki, verin bunlara biletlərini.

...Naxçıvan aeroportunda da "omonçular" bizi saxladılar. İndiki deputatımız – Heydər Əliyevin o vaxtkı köməkçisi Eldar İbrahimov bizə dedi ki, narahat olmayın, indi pasportlarınızı komandirdən geri alaram. Elə də etdi və bizi avtobusla yola saldı.

Görkəmli siyasətçi ilə mümkün qədər tez görüşməyə can atırdıq. Ancaq bizə dedilər ki, gecə saat 11-dir, indi Heydər müəllim Türkiyədən və İrandan gəlmiş yüksək səviyyəli qonaqlarladır, ona görə də, ola bilər, sizi bu axşam qəbul etməsin.

Artıq soyuqlar başlamışdı, buna görə də gecəni mehmanxanada deyil, yol yoldaşımız Eldar Əliyevin qohumugildə qaldıq. Səhər məlum oldu ki, Heydər Əliyev xarici qonaqları yola saldıqdan sonra onun qəbulunu gözləyənləri də gecə saat 3-ə kimi qəbul edibmiş. Mən onunla üzbəüz görüşmək fürsətini əldən verdiyimizə görə çox peşman oldum. Ancaq Əli Nağıyev dedi ki, narahat olmayın, sizi görüşdürəcəyəm.

Sonra YAP-ın təsis konfransının keçirildiyi Naxçıvan Şəhər Mədəniyyət Sarayına toplaşdıq. Əvvəl partiyanın məqsəd və məramı haqqında danışıldı, nizamnamə və proqramı oxundu, təkliflər verildi, bəzi düzəlişlər edildi. Ardınca Heydər Əliyev konfrans iştirakçılarının gur alqışları altında tribunaya yaxınlaşaraq, Azərbaycanın bugünü və sabahı ilə bağlı məzmunlu, maraqlı çıxış etdi. Hamı onun çıxışının təsiri altında söz demək, fikir bildirmək istəyirdi. Heydər Əliyev hər kəsi diqqətlə dinləyir, onun respublika rəhbərliyinə qayıtmasını arzu edənlərə təşəkkürünü bidirirdi. Amma çıxış edənlərin çox olduğunu, yığıncağın artıq 5 saata qədər davam etdiyini görərək, təklif etdi ki, çıxışlar dayandırılsın. Əli Nağıyev səhnənin ortasından böyük şəxsiyyətə müraciətlə xahiş etdi: "Mümkünsə, Şəkidən gələn qonağımız Baba Səmədova da söz verilsin". Heydər Əliyev nüfuzedici nəzərləri ilə mənə baxıb gülümsündü və dedi ki, əlbəttə, Baba kişini hökmən dinləməliyik, buyursun.



Mən səhnəyə qalxdım. Heydər Əliyevi çoxdan bəri görmədiyim üçün ilk olaraq ona yaxınlaşdım və ehtiramla salamlaşıb görüşdükdən sonra tribunaya keçdim. Təxminən belə bir çıxış etdim: "Hörmətli konfrans iştirakçıları, hamınıza məlumdur ki, hazırda Azərbaycanda vəziyyət nə yerdədir. Ölkəmizin üstünü hər yerdən qara buludlar alıb. Bunları görürük, ancaq daxildən üstümüzə yeriyən qara buludlar da var ki, onları aydın görə bilmirik, onlar da təhlükəlidir. Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün bizə yalnız müdrik ağsaqqalımız, dünya şöhrətli siyasətçimiz Heydər Əliyev lazımdır, ayrı cür mümkün deyil. Yoxsa, indiki vəziyyətdə Azərbaycan yox ola bilər. Biz 3 nəfər bura Şəki rayonundan gəlmişik. Sizin hər biriniz kimi, respublikanın taleyi üçün narahatlıq keçirdiyimizə görə Şəkidən Bakıya, ordan da Naxçıvana gəlmişik ki, bu çətin günlərdə Heydər Əliyevə dəstək olaq, onu Azərbaycan rəhbərliyinə dəvət etdiyimizi, ağır iqtisadi-siyasi vəziyyətə düçar olmuş ölkəmizi xilaskar kimi yalnız ona etibar etdiyimizi bildirək".

Bunu deyəndə salonda alqışlar qopdu. Mən çıxışımı tamamlayıb, tribunadan düşdüm. Sonra YAP-ın Siyasi Şurasına seçilənlərin adları oxundu. Gördüm ki, mən də o siyahıya düşmüşəm. Bunu, yəqin ki, Ulu öndər özü məsləhət bilmişdi.

Konfransdan sonra YAP-ın sədri Heydər Əliyev başda olmaqla hamımız piyada Naxçıvan Şəhidlər xiyabanına getdik. Vətən yolunda şəhid olmuş igidlərimizi ziyarət edib, ruhlarına dualar oxuduq. Sonra yenidən Naxçıvan Ali Məclisinin binasına toplandıq. Əslində, ora yalnız YAP Siyasi Şurasının üzvləri yığılmalıydı, ancaq Ulu öndər el atası kimi yenə də böyüklük, ağsaqqallıq edərək dedi ki, hamı gəlsin, çünki burada hamı qonaqdır. Heydər Əliyev rəyasət heyətindən üzünü konfrans iştirakçılarına tutub, uzaqdan-yaxından gələnlərin hamısına təşəkkürünü bildirdi və bizə məsləhətlərini verdi. Dedi ki, yerlərdə adamları partiyaya qəbul edin, ancaq könüllülük prinsipinə əməl olunsun. "Kimisə partiyaya keçməyə məcbur etməyin, zorla ərizə yazdırmayın. Və kim sonradan fikrini dəyişib, partiyadan çıxmaq istəyərsə, qətiyyən təzyiq göstərməyin, qoyun, çıxsın. Partiya üzvlük haqqını kim vermirsə və ya verə bilmirsə, eybi yoxdur, məcbur etməyin. Yəni camaatla beləcə səmimi, mehriban rəftar eləyin".

Bu arada zalın qapısı döyüldü, Naxçıvan aeroportunun rəisi icazə alıb, içəri keçdi və dedi ki, yoldaş Əliyev, Bakıya uçmalı olan təyyarəni saxlamışıq ki, bəlkə qonaqlardan paytaxta qayıtmaq istəyənlər var. Sərnişinlər uçuşun gecikməsindən narahatdırlar. Ona görə getmək istəyən varsa, sizin icazənizlə buyursunlar, gedək.

**Heydər Əliyev ayağa qalxaraq üzünü tədbir iştirakçılarına tutub dedi:**

– Yoldaşlar, bilirsiniz ki, xalqımızın çox gözəl bir adəti var – heç vaxt qonağa "get" demək olmaz. Ona görə də kim qalmaq istəyirsə, əlbəttə, qalsın, gedənlərə isə yaxşı yol, uğurlu fəaliyyət arzulayırıq.

Biz – 3 nəfər Şəki nümayəndəsi ayağa qaxdıq, xudahafizləşmək üçün Heydər Əliyevə yaxınlaşdıq. O, mənimlə səmimi görüşüb-öpüşüb dedi ki, çox sağ olun, bu çətin məqamda Şəkidən durub Naxçıvana gəlmisiniz. Möhkəm olmaq lazımdır.

Mən cavab verdim ki, yoldaş Əliyev, nə qədər ki Siz varsınız, biz həmişə möhkəm olacağıq. Ayrılarkən bir də qucaqlaşdıq və astaca qulağıma pıçıldadı: "Siz gedin, mən də gələcəyəm!".

Elə də oldu. 7 aydan sonra – 1993-cü ilin iyununda böyük şəxsiyyət, xalqımızın Ümummilli lideri Heydər Əliyev Bakıya Azərbaycanımızın qüdrətli və qətiyyətli, müdrik xilaskarı kimi qayıtdı. Odur ki, xalqımızın bu dahi oğlunun əziz və nurlu xatirəsi qəlbimizdə daim yaşayacaq.

***Çapa hazırladı:***
***Rəhman ORXAN,***
***Əməkdar jurnalist***

# Ərəb dünyasının Ulu öndərə sevgi və ehtiramı

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi türk dünyasında olduğu kimi, ərəb ölkələrində də sevgi-sayğı ilə yad edilir. Bu yaxınlarda İordaniyada işıq üzü görmüş "Vətən və liderlik" adlı kitabda Ulu öndərin parlaq şəxsiyyətinə İslam aləmində verilən yüksək qiymət geniş əksini tapmışdır.**

**İqtisadi Əməkdaşlıq Təşkilatına Üzv Dövlətləri Jurnalistləri Assosiasiyasının sədri, Əməkdar jurnalist, ərəb filologiyası üzrə fəlsəfə doktoru Fazil Güney dost ölkədən ona göndərilmiş yubiley nəşri barədə XQ-yə açıqlamasında bildirdi:**

– Ötən yüzilliyin 70-ci illərində müsəlman Şərqinin dövlət başçıları arasında dünya şöhrətli siyasətçi olması ilə seçilərək böyük nüfuz qazanmış, örnəyə çevrilmiş Heydər Əliyevin adı, fəaliyyəti çoxmilyonlu ərəb ictimaiyyəti arasında da böyük ehtiramla yad edilir. Bu uzaqgörən dövlət xadiminin tövsiyələrinin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi son 2 əsrdə ərazilərinin xeyli hissəsini itirmiş Azərbaycanın Qarabağı işğaldan xilas etməsi müstəmləkə və işğalların acısını kifayət qədər yaşamış İslam dünyasının liderləri üçün də gerçək nümunə olmuşdur.

Öz ölkələrində Heydər Əliyev kimi onun yetirməsi – millətinin, dövlətinin xilaskarı Prezident İlham Əliyev kimi dövlət başçılarını görmək çoxlarının arzusu idi. İllərdir təmasda olduğum ərəb jurnalistləri, diplomatları, yazıçıları və sadə vətəndaşları ilə söhbətləşəndə bunun şahidi olmuşam.

Bu yaxınlarda İordaniyanın tanınmış araşdırmaçı jurnalisti Bakıdakı İƏT Üzv Dövlətləri Jurnalistləri Assosiasiyasının Məşvərət Şurasının üzvü Omar Əl Armuti İordaniyanın Azərbaycandakı səfirliyi vasitəsilə Ulu öndərin 100 illiyi münasibətilə nəşr etdikləri "Vətən və liderlik" kitabını mənə göndərmişdir. Bu, onun Azərbaycanla bağlı üçüncü kitabıdır. Omar Əl Armutinin nəşr etdirdiyi "Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq hüquq" və "Azərbaycanla İordaniyanın əlaqələrində mühüm mülahizələr" adlı kitabları 2018 və 2019-cu illərdə assosiasiyamız tərəfindən ərəbcədən dilimizə çevrilərək nəşr edilmiş, Bakıdakı əcnəbi səfirliklərin əməkdaşlarının, ictimaiyyətin və mətbuat təmsilçilərinin qatıldığı dəyirmi masalarda müzakirə olunmuş, mətbuatda və TV kanallarında işıqlandırılmışdır.

Adlarından göründüyü kimi, çox əhatəli olan bu kitabların torpaqlarımızın işğal altında olduğu və hayların ərəb kapitalını Hayastana cəlb etmək üçün dəridən-qabıqdan çıxdığı dönəmlərdə nəşr edilib ərəb aləmində yayılmasının böyük önəmi vardır.

**Dost ölkədə 2023-cü ildə nəşr edilmiş, üz qabığında Ulu öndər Heydər Əliyevlə Prezident İlham Əliyevin şəkilləri olan, Azərbaycan bayrağı və gerbi ilə açılan bu sonuncu kitab haqqında oxucularımızı bilgiləndirən həmkarımız daha sonra dedi:**

– Azərbaycan coğrafiyası, tarixi, çağdaş dünyamızdakı yeri, uluslararası əlaqələri, ordusu, iqtisadiyyatı, kommunikasiya vasitələri, ölkədə turizmin inkişafı, ictimai-mədəni həyatı, azərbaycanlıların problemləri fonunda




Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətləri geniş şəkildə 12 fəsildə təsvir olunmuşdur.

Kitabı təqdim edən İordaniyanın Azərbaycana yeni təyin olunmuş səfiri Abdul Munin Nahar belə təşəbbüslərin əlaqələrimizin inkişafında çox gərəkli olduğunu vurğuladı.

Kitabın tərtibatçıları istər əski çağlardakı təzkirəçilərin, istərsə də çağdaş ərəb dünyasından qələm sahiblərinin Azərbaycan haqqında yazdıqlarından iqtibaslar gətirirlər. İraqdan Dr. Moutaz Muhy Abdulhamid arxasında Rusiya və Fransanın dayandığı, bütün xristian dünyasının kömək etdiyi, otuz ilə yaxın əzəli Azərbaycan torpağı Qarabağı işğal altında saxlamış Ermənistanı 44 günlük müharibədə məğlub edib ərazisini azad etməsindən müxtəlif mətbuat orqanlarında çox yazmışdır.

Ulu öndərin yubileyinə həsr olunmuş İordaniya nəşri 44 günlük Vətən müharibəsindən sonra daha da şöhrətlənmiş Azərbaycan haqqında çoxmilyonlu ərəb oxucusu üçün mükəmməl bilgi mənbəyidir.

***Hazırladı:***
***Fidan SALMANOVA***
***XQ***

# Naxçıvanın xilaskarı

**AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində "Ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü" mövzusunda elmi konfrans keçirilib.**



Toplantını giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətindən, xüsusilə bu fəaliyyətin Naxçıvan dövrünün tariximizə bəxş etdiyi mühüm tarixi günlərdən danışıb. Vurğulanıb ki, ötən əsrin 90-cı illərində ölkəni düşdüyü çətin vəziyyətdən qeyri-adi idarəetmə bacarığına malik dövlət xadimi xilas edə bilərdi. Belə bir rəhbər Heydər Əliyevdən başqası ola bilməzdi.

"Heydər Əliyev İli" çərçivəsində AMEA-da, eləcə də Naxçıvan Bölməsində nəşr olunan əsərlərdən söz açan akademik diqqətə çatdırıb ki, il ərzində bölmədə Ulu öndərə həsr olunmuş 2 monoqrafiya, 1 kitab və ikicildlik konfrans materialları çapdan çıxıb.

Konfrans öz işini elmi məruzələrin təqdimatı ilə davam etdirib. Sonda maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# "Ata vəsiyyəti və inamlı Zəfər"

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə dünən Zaqatala Rayon İcra Hakimiyyəti, YAP rayon təşkilatı və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Ata vəsiyyəti və inamlı Zəfər" mövzusunda elmi-praktik konfrans keçirilib.***



YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov, rayon icra hakimiyyəti başçısının müavini Vəfa Süleymanova, partiya fəaları Ədalət Qurbanova, Aydın Məmmədov çıxış edərək Ulu öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı misilsiz xidmətlərindən danışıblar.

***XQ***

## “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666; 2001, № 7, maddə 459; 2003, № 10, maddələr 546, 571; 2004, № 8, maddə 617, № 12, maddə 1005; 2006, № 9, maddə 743; 2008, № 8, maddə 719; 2009, № 4, maddə 226, № 8, maddə 630; 2010, № 7, maddə 606; 2011, № 6, maddə 510; 2012, № 5, maddə 423, № 11, maddə 1079; 2014, № 9, maddə 1043; 2015, № 2, maddələr 110, 140, № 6, maddə 707, № 10, maddə 1116; 2016, № 3, maddə 456, № 4, maddələr 662, 666, № 6, maddə 1062, № 11, maddə 1839; 2017, № 5, maddə 758, № 8, maddə 1521; 2018, № 2, maddələr 169, 197, № 4, maddə 677, № 6, maddə 1241, № 7 (I kitab), maddələr 1466, 1493; 2019, № 1, maddə 96, № 3, maddə 420, № 7, maddə 1228, № 8, maddələr 1402, 1406; 2020, № 5, maddə 561, № 7, maddə 885; 2021, № 4, maddə 316; 2022, № 8, maddə 860; 2023, № 2, maddə 226, № 3, maddələr 352, 372) 2.12-1-ci bəndində “Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası, nəqliyyat vasitələrinin hərəkəti tarix və mədəniyyət abidələrinin qorunması üçün təhlükə yaratdıqda - Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəyi əsasında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi” sözləri “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (nəqliyyat vasitələrinin hərəkəti tarix və mədəniyyət abidələrinin qorunması üçün təhlükə yaratdıqda - Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin rəyi əsasında)” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə uyğun olaraq, fiziki və hüquqi şəxslər tərəfindən yol hərəkəti təşkilinin perspektiv proqramlarının, kompleks sxemlərinin və layihələrinin hazırlanması, habelə həyata keçirilməsi ilə bağlı tələblərin məqsədəmüvafiqliyini üç ay müddətində araşdırsın və bu barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 noyabr 2023-cü il**

## “Nəqliyyatı Əlaqələndirmə Şurası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Nəqliyyatı Əlaqələndirmə Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli 3854 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Nəqliyyatı Əlaqələndirmə Şurası haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 noyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 421**

**Bakı şəhəri, 21 noyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 501; 2022, № 4, maddə 412, № 10, maddə 1221; 2023, № 3, maddə 435; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 oktyabr tarixli 362 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci bənd üzrə:

1.1. “ixtisasları” sözündən sonra “(fənləri)” sözü əlavə edilsin;

1.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Sertifikatlaşdırma təhsilverənlərin tədris apardığı dildə keçirilir.”.

2. 4.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.2. Sertifikatlaşdırmadan keçmiş təhsilverənlərə “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”ndə “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq elektron sənəd formasında yaradılan sertifikat verilir. Sertifikat sertifikatlaşdırmanın nəticələri elan olunduqdan sonra 5 (beş) iş günü müddətində hazırlanır.”.

3. Aşağıdakı məzmunda 4.2-1 - 4.2-6-cı bəndlər əlavə edilsin:

“4.2-1. “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” vasitəsilə əldə edilmiş sertifikatın kağız daşıyıcıda olan surətinin təsdiqi “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

4.2-2. Sertifikatın həqiqiliyi “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlanıla bilər.

4.2-3. Sertifikat Sertifikatlaşdırma Şurasının sədrinin elektron imzası ilə təsdiq edilir.

4.2-4. Sertifikat təhsilverən üçün açılmış “Şəxsi kabinet”də yerləşdirilir.

4.2-5. Sertifikatda aşağıdakı məlumatlar əks olunmalıdır:

4.2-5.1. sertifikatın nömrəsi və verildiyi tarix (altsistem tərəfindən verilir);

4.2-5.2. təhsilverənin sertifikatlaşdırmada iştirak etdiyi tarix;

4.2-5.3. sertifikatın etibarlılıq müddəti (müddətin başa çatdığı tarix və ya 3-cü dəfə sertifikatlaşdırmadan keçmiş şəxslər üçün müddətsiz olduğu göstərilir);

4.2-5.4. təhsilverənin identifikasiya məlumatları (soyadı, adı, atasının adı və doğum tarixi) və FİN kodu;

4.2-5.5. təhsilverənin çalışdığı təhsil müəssisəsinin (tabeçiliyi göstərilməklə) adı;

4.2-5.6. təhsilverənin tədris etdiyi ixtisasın (fənnin) adı;

4.2-5.7. təhsilverənin sertifikatlaşdırmada iştirak etdiyi dil;

4.2-5.8. təhsilverənin test və müsahibə mərhələlərində topladığı balı;

4.2-5.9. sertifikatın təhsilverənə Azərbaycan Respublikasının dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil fənləri tədris edilən digər dövlət təhsil müəssisələrində) pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ verdiyinə dair qeyd.

4.2-6. Sertifikatda bütün məlumatlar Azərbaycan dilində yazılır.”.

4. Həmin Qaydaya əlavə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 422**

**Bakı şəhəri, 21 noyabr 2023-cü il**

***“Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin hesablanmasına dair metodologiya”nın təsdiq edilməsi haqqında***

“Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və “Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödənişin hesablanmasına dair metodologiya” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 22 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Nəqliyyatı Əlaqələndirmə Şurası haqqında Əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Nəqliyyatı Əlaqələndirmə Şurası (bundan sonra – Şura) “Nəqliyyatı Əlaqələndirmə Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli 3854 nömrəli Sərəncamına uyğun olaraq ölkədə nəqliyyatın ayrı-ayrı növlərinin koordinasiyalı fəaliyyətinin və əhalinin mobilliyinin təmin edilməsi, yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, yol hərəkətinin təşkili, təhlükəsizliyi və tənzimlənməsi sahələrində (bundan sonra – müvafiq sahədə) fəaliyyətin əlaqələndirilməsi və təkmilləşdirilməsi məqsədilə yaradılmış kollegial orqandır.

1.2. Şura öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını rəhbər tutur.

1.3. Şura öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, habelə digər hüquqi şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Şuranın qərarlarının icrası Şura üzvü olan dövlət orqanları (qurumları) tərəfindən təmin edilməlidir.

1.5. Şuranın üzərində adı həkk olunmuş blankı, ştampları və möhürü vardır.

1.6. Şura öz fəaliyyətini qanunçuluq, şəffaflıq, kollegiallıq və qərəzsizlik prinsipləri əsasında qurur.

**2. Şuranın fəaliyyət istiqamətləri**

2.1. Şuranın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahənin inkişafını və təkmilləşdirilməsini təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, habelə digər hüquqi şəxslərin fəaliyyətini əlaqələndirmək;

2.1.3. əhalinin mobilliyinin səmərəli təşkili məqsədilə tədbirlərin həyata keçirilməsini təmin etmək.

**3. Şuranın vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Şuranın vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahənin inkişaf istiqamətlərinin müəyyən edilməsi məqsədilə Şura üzvlərinin fəaliyyətini əlaqələndirmək;

3.1.2. nəqliyyat infrastrukturu obyektlərinin tikintisi (inşası, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası) və təkmilləşdirilməsi məqsədilə vəsait ayrılması barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər təqdim etmək;

3.1.3. müvafiq sahədə Şura üzvü olan dövlət orqanları (qurumları) vasitəsilə monitorinqlərin keçirilməsi barədə qərar qəbul etmək;

3.1.4. yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi haqqında əsaslandırılmış qərar qəbul etmək;

3.1.5. dəmir yolu xətlərinin (stansiyalarının) və avtomobil yollarının tikintisi, genişləndirilməsi və təkmilləşdirilməsi barədə təkliflər vermək;

3.1.6. sərnişinlərin metro nəqliyyatı ilə daşınmasının keyfiyyətinin yüksəldilməsi məqsədilə metro nəqliyyatının inkişaf konsepsiyasının hazırlanmasını təşkil etmək və yeni metropoliten xətlərinin (stansiyalarının) tikintisi və təkmilləşdirilməsi barədə təkliflər vermək;

3.1.7. ümumi istifadədə olan nəqliyyat vasitələrinin hərəkəti üçün xüsusi zolaqların müəyyən edilməsi və ləğv olunması barədə əsaslandırılmış qərar qəbul etmək;

3.1.8. avtomobil yollarında sürət həddinin müəyyən olunması barədə əsaslandırılmış qərar qəbul etmək;

3.1.9. avtomobil yollarında yol hərəkətinin təşkilinin texniki vasitələrinin tətbiqi (quraşdırılması və ya çəkilməsi (o cümlədən quraşdırılma və ya çəkilmə yerinin müəyyənləşdirilməsi) barədə əsaslandırılmış qərar qəbul etmək;

3.1.10. nəqliyyat sektorunun ətraf mühitə mənfi təsirlərinin azaldılması istiqamətində fəaliyyət istiqamətlərinə uyğun olaraq tədbirlər görmək;

3.1.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq, yol hərəkəti sahəsində görüləcək tədbirləri əlaqələndirmək;

3.1.12. piyada infrastrukturunun inkişafı və əlçatanlığı, habelə velosiped və elektrikli nəqliyyat vasitələrindən istifadənin təşviqi istiqamətində zəruri tədbirlər (parklanma və hərəkət üstünlüyünün verilməsi, enerjidoldurma məntəqələrinin, habelə yeraltı və yerüstü dayanacaq məntəqələrinin sayının artırılması və sair) görülməsini təşkil etmək və görüləcək işləri əlaqələndirmək;

3.1.13. ağır nəticəli yol-nəqliyyat hadisələrinin başvermə səbəbləri ilə bağlı Şura üzvü olan dövlət orqanlarından (qurumlarından) ümumi vəziyyəti əks etdirən məlumatlar almaq və yol-nəqliyyat hadisələrinin başvermə səbəblərinin aradan qaldırılması məqsədilə görüləcək zəruri tədbirləri əlaqələndirmək;

3.1.14. dövlət orqanlarının (qurumlarının), təhsil və tibb müəssisələrinin, habelə digər hüquqi və fiziki şəxslərin iş rejiminin dəyişkən iş qrafikinə əsasən təşkilinə dair təklifləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmək;

3.1.15. maliyyələşmə üçün təqdim edilən nəqliyyat infrastrukturu obyektlərinin layihələrinə müvafiq sahəyə təsiri baxımından rəy vermək;

3.1.16. Şura üzvü olan dövlət orqanları (qurumları) tərəfindən nəqliyyat infrastrukturu obyektlərinin tikinti layihələrinə qanunla müəyyən edilmiş qaydada rəy verilməsi prosesinə nəzarət etmək;

3.1.17. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və nəqliyyat sahəsinə aid məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində zəruri tədbirlər görülməsini təmin etmək və görüləcək işləri əlaqələndirmək;

3.1.18. müvafiq sahədə həyata keçirilən işlər, onların zəruriliyi, məqsədi və mümkün nəticələri barədə mediada məlumat vermək;

3.1.19. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Bu Əsasnamənin 3.1.4-cü, 3.1.7 – 3.1.9-cu yarımbəndlərində göstərilən məsələlər Şuranın müzakirəsinə yalnız əhalinin mobilliyinə əhəmiyyətli təsir edən hallarda çıxarıla bilər.

**4. Şuranın hüquqları**

4.1. Öz vəzifələrini həyata keçirmək üçün Şuranın aşağıdakı hüquqları vardır:

4.1.1. bu Əsasnamə ilə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar işçi qruplar və komissiyalar yaratmaq, onların işinə aidiyyəti dövlət orqanlarını (qurumlarını), müstəqil ekspertləri və mütəxəssisləri, habelə elm və təhsil müəssisələrini və qeyri-hökumət təşkilatlarını cəlb etmək;

4.1.2. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi şəxslərə zəruri sənədlər və məlumatlar barədə sorğular vermək, onlardan belə sənədləri (məlumatları) almaq;

4.1.3. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin icrası ilə bağlı aidiyyəti üzrə təkliflər vermək;

4.1.4. Şuranın qərarlarının yerinə yetirilməsinin monitorinqinin aparılmasını təmin etmək;

4.1.5. Şura üzvü olan dövlət orqanları (qurumları) tərəfindən həyata keçirilmiş tədbirlər barədə, eləcə də yol-nəqliyyat hadisələrinin monitorinqinin nəticələrinə dair məlumatlar almaq;

4.1.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı müzakirəyə təqdim olunan hüquqi aktların layihələrinə rəy bildirmək;

4.1.7. müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və Azərbaycan Respublikasında tətbiqi istiqamətində zəruri tədbirlər görülməsini təmin etmək və görüləcək işləri əlaqələndirmək;

4.1.8. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

4.1.9. Şuranın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

4.1.10. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Şuranın fəaliyyətinin təşkili**

5.1. Şuranın tərkibini (sədrini və üzvlərini) Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

5.2. Şuranın sədri aşağıdakı vəzifələri yerinə yetirir:

5.2.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir;

5.2.2. Şuranın iş planını təsdiq edir və onun icrasına nəzarət edir;

5.2.3. Şura üzvlərinin təkliflərini nəzərə almaqla, Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

5.2.4. Şuranın qərarlarını, onun fəaliyyəti ilə bağlı digər sənədləri imzalayır;

5.2.5. Şuraya daxil olan müraciətlərə baxılmasını təmin edir;

5.2.6. görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə hər yarım ildən sonrakı ayın 30-dək hesabat verilməsini təmin edir;

5.2.7. Şuranın iclaslarında qəbul olunmuş qərarların, iclasların nəticələrinə dair imzalanmış sənədlərin icrası ilə bağlı tədbirlər təşkil edir;

5.2.8. Şuranın Katibliyinin və işçi qruplarının iş qaydasını təsdiq edir, Şuranın Katibliyinə bu Əsasnamənin 3-cü və 4-cü hissələrində nəzərdə tutulan qərarların qəbulu və tədbirlərin görülməsi üçün təhlillərin və monitorinqlərin aparılması və müvafiq hesabatların təqdim edilməsi barədə tapşırıqlar verir;

5.2.9. Şuranı təmsil edir;

5.2.10. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər işlər görür.

5.3. Şura sədrinin hüquqları aşağıdakılardır:

5.3.1. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün xahişi əsasında aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrini və digər şəxsləri Şuranın iclaslarında iştirak etməyə dəvət etmək;

5.3.2. Şuranın fəaliyyəti ilə bağlı digər hüquqları həyata keçirmək.

5.4. Şuranın sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini Şura sədrinin müəyyənləşdirdiyi Şura üzvlərindən biri həyata keçirir.

5.5. Şura üzvlərinin vəzifələri aşağıdakılardır:

5.5.1. Şuranın fəaliyyəti ilə bağlı məlumatları Şuranın sorğularına əsasən tam və vaxtında təqdim etmək;

5.5.2. Şuranın qərarlarının və digər sənədlərin icrası ilə bağlı tədbirlər görmək;

5.5.3. Şuranın fəaliyyəti ilə bağlı digər vəzifələri yerinə yetirmək.

5.6. Şura üzvlərinin aşağıdakı hüquqları vardır:

5.6.1. Şuranın iclaslarında və fəaliyyətində iştirak etmək;

5.6.2. Şuranın iclaslarının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olmaq;

5.6.3. Şuranın iclaslarının gündəliyi, eləcə də Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılması barədə təklif vermək;

5.6.4. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirmək;

5.6.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olmaq, onlara dair rəy və təkliflər vermək.

5.7. Şuranın fəaliyyətinin təşkili ilə bağlı işləri Şuranın Katibliyi həyata keçirir. Şuranın Katibliyinin funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

5.8. Şuranın Katibliyinin tərkibini Şuranın sədri müəyyən edir.

5.9. Şuranın Katibliyi aşağıdakı vəzifələri yerinə yetirir:

5.9.1. Şuranın fəaliyyəti ilə bağlı sədrin tapşırıqlarını icra edir və Şuranın fəaliyyətinin təşkilati təminatını həyata keçirir;

5.9.2. Şura üzvlərinin təklifləri əsasında Şuranın iclaslarının gündəliyini hazırlayır və təsdiq olunması üçün Şuranın sədrinə təqdim edir;

5.9.3. Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü, növbədənkənar iclaslar zamanı isə azı 1 (bir) iş günü qalmış zəruri sənədlər əlavə edilməklə Şuranın üzvlərinə yazılı məlumat verir;

5.9.4. Şura sədrinin tapşırığı ilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrini, müstəqil ekspertləri və mütəxəssisləri, habelə elm və təhsil müəssisələrinin və qeyri-hökumət təşkilatlarının nümayəndələrini Şuranın iclaslarına dəvət edir;

5.9.5. Şuranın iclaslarını protokollaşdırır və iclasın yekun sənədlərinin layihələrini Şuranın sədrinə təqdim edir;

5.9.6. imzalanmış sənədlərin icrası ilə bağlı görülmüş işlər barədə hesabatlar və digər zəruri məlumatlar əldə edir, onları təhlil edərək ümumiləşdirir;

5.9.7. Şuranın iclas protokollarının və qərarlarının surətlərini Şura üzvlərinə, habelə qərarlardan çıxarışları aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərir;

5.9.8. Şuranın iclaslarında qəbul olunmuş qərarların, o cümlədən imzalanmış digər sənədlərin uçotunu aparır və onların saxlanılmasını təmin edir;

5.9.9. Şuranın qərarı ilə onun fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi şəxslərə zəruri sənədlər və məlumatlar barədə sorğular verir, onlardan belə sənədləri (məlumatları) alır;

5.9.10. Şuranın fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırır;

5.9.11. Şuranın fəaliyyəti ilə bağlı digər işləri həyata keçirir.

5.10. Şuranın iclasları onun üzvlərinin bilavasitə iştirakı ilə əyani formada və ya informasiya texnologiyalarından istifadə etməklə distant formada keçirilə bilər. Şuranın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

5.11. Şuranın iclasları Şuranın sədri tərəfindən çağırılır və ayda bir dəfədən az olmayaraq keçirilir. Növbədənkənar iclaslar Şura sədrinin və ya Şura üzvlərinin yarıdan çoxunun təşəbbüsü ilə çağırıla bilər.

5.12. Şuranın iclaslarında qərarlar açıq səsvermə yolu ilə iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Qərar qəbul edilərkən səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

5.13. Şuranın iclaslarının nəticəsi Şuranın sədri və iclasda iştirak edən üzvlər tərəfindən imzalanmış iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir.

5.14. Şuranın qərarlarının icra vəziyyəti barədə məlumat bu Əsasnamənin 5.2.6-cı yarımbəndinə əsasən Azərbaycan Respublikasının Prezidentinə təqdim olunan hesabata daxil edilir.

5.15. Şuranın iclaslarında baxılan məsələlər və qəbul edilən qərarlar barədə məlumat Şuranın sədri və ya onun razılığı ilə Katiblik tərəfindən Şuranın rəsmi internet saytında yerləşdirilir.

5.16. Şuranın yenidən təşkilini və ləğvini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Qara dənizdən Avropaya “yaşıl enerji” platforması

## Bu dəhlizlə ölkəmizdən 4 qiqavat bərpaolunan enerji nəql ediləcək

(əvvəli 1-ci səhifədə)

Macarıstanın paytaxtı Budapeşt şəhərində “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in icrası məqsədilə keçirilən nazirlərin beşinci iclasında çıxış edən energetika naziri Pərviz Şahbazov ölkəmizdə bərpaolunan enerji potensialının reallaşdırılması və “Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi” layihəsinin inkişafının cari vəziyyətindən bəhs edib. Nazir bir neçə ölkəni, iki dənizi birləşdirən marşrutlarla Xəzərin “yaşıl enerji” potensialını Avropada təchizatın təhlükəsizliyinin gücləndirilməsinə və təmiz enerji keçidinə yönəldən bu strateji layihənin icrasını sürətləndirməyin əhəmiyyətini vurğulayıb.



Bildirilib ki, təxminən bir il əvvəl ölkələrimiz vahid mövqedən çıxış edərək “yaşıl enerji” dəhlizi təşəbbüsü üzrə sıx əməkdaşlığa hazır olduqlarını Avropa İttifaqının şahidliyi ilə ali səviyyədə təsdiqləyib: “Bu layihə Azərbaycanın “yaşıl enerji”nin təchizatçısına çevrilmək planlarının tərkib hissədir. Bu dəhlizlə 4 QVt həcmində “yaşıl enerji”-nin ixracı məqsədilə dənizdə sektorlar müəyyənləşdirilib, quruda ərazilər ayrılıb və növbəti proseslərə start verilib. “Yaşıl enerji” tərəfdaşlığımızın öz məqsədinə çatması üçün bərpaolunan mənbələrdən enerji istehsalı, bu enerjinin ötürülməsi və satışı istiqamətlərində sıx koordinasiya olunmuş fəaliyyət həyata keçirilməlidir”.

Müzakirələr zamanı dəhlizin ölkələr üzrə perspektivləri, Bolqarıstanın layihəyə qoşulması, Avropa İttifaqı tərəfindən layihənin maliyyələşdirilməsi imkanları, Gürcüstan və Rumıniya arasında Qara dəniz sualtı kabel layihəsi üzrə “CESI” məsləhətçi şirkətinin fəaliyyəti kimi məsələlər nəzərdən keçirilib.

Xatırladaq ki, 2021-ci ilin dekabrında dörd ölkənin liderləri tərəfindən Buxarestdə Azərbaycandan Gürcüstan ərazisindən keçməklə, dənizaltı kabel vasitəsilə Rumıniyaya, oradan isə Macarıstana elektrik enerjisinin tədarükünə dair saziş imzalanandan qısa müddət sonra isə Macarıstanın xarici işlər və xarici iqtisadi əlaqələr naziri Peter Siyarto uzunluğu 1195 kilometr kabel layihəsinin texniki-iqtisadi əsaslandırma dəyərinin 2,5 milyon avro olacağını və bu mənbəyin Dünya Bankının vəsaiti hesabına qarşılanacağını bildirib.

Macarıstan hökumətinin bildirdiyinə görə, Avropa Komissiyası bu layihəni bütün Avropa üçün vacib hesab edir. Layihəyə dörd il ərzində investisiya yönəldilməsi nəzərdə tutulur. Transqafqazdan gələn ekoloji cəhətdən təmiz elektrik enerjisinin bir hissəsinin Macarıstanda istifadə edilməsi, bir hissəsinin isə oradan başqa ölkələrə göndərilməsi planlaşdırılır. Elektrik xətti boyunca fiber-optik kabelin çəkilməsi də nəzərdə tutulur.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdik. Belə ki, Macarıstana elektrik enerjisinin ötürülməsindən sonra Azərbaycan-Macarıstan arasında idxal və ixrac nisbətlərinin dəyişəcəyi də gözlənilir. Bu əminliyi isə ötən ilin sonunda Buxarestdə Macarıstan–Rumıniya, Gürcüstan və Azərbaycanın birgə imzaladığı sənədlə respublikamızda istehsal olunacaq elektrik enerjisinin Qara dənizin dibi ilə Macarıstana qədər çatdırılması layihə–konsepsiyasının mövcudluğu yaradır.

Qara dəniz sualtı kabel layihəsinin həyata keçirilməsi ilə bağlı artıq texniki və maliyyə məsələləri nəzərdən keçirilir. Bununla da, 1195 kilometr uzunluğunda dünyanın ən uzun sualtı kəmərinin tikintisi planlaşdırılır. Beləliklə, Azərbaycan qazının Avropaya, eyni zamanda Macarıstana nəqli nəticəsində “mavi yanacağ”ın həcminin getdikcə artması, respublikamızda istehsal ediləcək elektrik enerjisinin Macarıstana ixracı iki ölkə arasındakı ticarət dövriyyəsinin kəskin şəkildə artacağını şərtləndirir.

Sözügedən layihənin implementasiyası region və Avropa bazarları arasında elektrik enerjisinin ixracı imkanlarının genişləndirilməsi, eləcə də Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin külək enerjisi potensialı sayəsində Avropanın enerji təhlükəsizliyinin diversifikasiyası baxımından mühüm rol oynayacaq.

Son illər dünyada ənənəvi enerji mənbələrindən “yaşıl enerji”yə keçidə maraq xeyli artıb. Məlum olduğu kimi, hazırda dünyada enerji istehlakının 17,9 faizi bərpaolunan enerji mənbələrinin payına düşür. Artıq bu sahə neft, qaz və ya kömür kimi təbii sərvətlərlə zəngin ölkələrin belə, enerji sahəsində dövlət siyasətinin tərkib hissəsinə çevrilib.

Bunun nəticəsidir ki, bərpaolunan enerji mənbələrinin energetika sektorunda payı getdikcə artır. Hətta bir sıra ölkələr 2035–2050-ci ilə qədər mədən yanacaqlarından tamamilə imtina etməyi və “yaşıl enerji”dən istifadəyə keçməyi planlaşdırırlar. Azərbaycanda da bu sahəyə xüsusi diqqət göstərilir. 2030-cu ilədək elektrik enerjisi qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması, işğaldan azad olunmuş ərazilərin “yaşıl enerji” məkanına çevrilməsi ölkəmizin enerji siyasətində prioritetdir.

Hazırda Azərbaycanın ümumi elektrik enerjisi istehsalında iri su elektrik stansiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələrinin payı 17 faiz təşkil edir. Bu da 1278 meqavat elektrik enerjisi deməkdir.

Qara dənizin dibi ilə kabelin çəkilməsi başa çatana qədər isə ölkəmiz “yaşıl enerji” istehsalını təmin etməlidir. Prezident İlham Əliyevin Azərbaycanın “yaşıl enerji” ilə bağlı potensialının hərəkətə gətirilməsi istiqamətində görülən işlərdən bəhs edərək bildirib ki, ötən müddətdə 25 qiqavat enerjini istehsal etmək məqsədilə bərpaedilən enerji sahəsində məşhur olan bir neçə əsas beynəlxalq şirkətlə müqavilə və anlaşma memorandumları imzalanılıb. “Hazırda onun təxminən 500 meqavatı üçün tikinti işləri gedir. 230 meqavatlıq güclərin açılışını biz bir neçə ay ərzində planlaşdırırıq. 700 meqavatdan artıq günəş və külək enerjisini biz ola bilsin, maksimum 2025-ci ilə qədər təmin edəcəyik. Qalan güclərin yaradılması plandadır. Bir sözlə, gələcəyimizin böyük üfüqləri var və biz hər zaman bir yerdə olmalıyıq”, – deyə Prezident İlham Əliyev fikrini tamamlayıb.

Göründüyü kimi, Azərbaycan Avropanın enerji təhlükəsizliyini təkcə neft-qaz potensialı ilə də deyil, alternativ enerji mənbələri hesabına da təmin etməsi ilə bağlı mühüm işlər görür. Bu istiqamətdə birgə əməkdaşlığın isə Azərbaycan iqtisadiyyatına çox böyük fayda gətirəcəyi şəksizdir.

***V.BAYRAMOV***
***XQ***

# BTC ilə 25 milyon ton neft ötürülüb

**Dövlət Statistika Komitəsindən bildirilir ki, magistral neft kəmərləri ilə 33 milyon 108 min ton neft nəql edilib. Nəqletmənin 76 faizi Bakı–Tbilisi–Ceyhan (BTC) neft ixrac kəməri ilə həyata keçirilib və cari ilin 10 ayı ərzində bu kəmər vasitəsilə 25 milyon 172 min ton neft ötürülüb.**

10 ay ərzində BTC kəməri ilə ötürülən neftin 83 faizini və ya 20 milyon 902 min tonunu Azərbaycanda hasil olunan neft, 17 faizini və ya 4 milyon 270 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil edib.



Magistral qaz kəmərləri ilə 3 milyard 297 milyon kubmetr qaz nəql olunub və əvvəlki ilin müvafiq dövrünə nisbətən 4 faiz artım qeydə alınıb. Qazın nəqlinin 55 faizi Bakı–Tbilisi–Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilib və 18 milyard 210 milyon kubmetr qaz ötürülüb.

Bu ilin 9 ayında nəqliyyat dəhlizlərində daşınan yüklərin həcmi isə 245 milyon 57 min ton olub. Yüklərin 111 milyon 40 min tonu və ya 45,4 faizi dəmir yolu nəqliyyatı, 6 milyon 908 min tonu və ya 28,1 faizi avtomobil nəqliyyatı, 6 milyon 509 min tonu və ya 26,5 faizi dəniz nəqliyyatı ilə daşınıb. Dəhlizlər vasitəsilə daşınan yüklərin 57,5 faizini və ya 141 milyon 27,1 min tonunu tranzit yüklər təşkil edib.

# Yeni iş yerlərinin 93 faizi özəl sektorun payına düşür

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Bakıda keçirilən “Gömrük-Biznes Forumu 2023”də çıxışı zamanı bildirib ki, yanvar–sentyabr aylarında respublikada açılan yeni iş yerlərinin 93 faizi özəl sektorda yaradılıb.**



T.Mirkişili əlavə edib ki, iqtisadi artım qabaqcıl və səmərəli özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirməlidir. Yenilikçiliyə malik özəl sektorda aktivlik daha da canlandırılmalı, qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payı artırılmalıdır. Özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühit əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalı, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmalı, haqsız rəqabətin qarşısı alınmalıdır. Yeni və şəffaf özəlləşmə strategiyası həyata keçirilməlidir.

O, bütün bunlarla bərabər, biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsinin artırılması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması zəruriliyini də diqqətə çatdırıb.

# Sığorta bazarı 28 faiz böyüyüb

**Mərkəzi Bankın məlumatına əsasən, cari ilin yanvar–oktyabr aylarında ölkəmizdəki 20 sığorta şirkətinin xətti ilə 1 milyard 19,745 milyon manat sığorta haqqı toplanılıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 27,8 faiz çoxdur.**

Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 455 milyon milyon manat təşkil edib. Bu isə illik müqayisədə 26,6 faiz çoxdur.

10 ay ərzində sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 44,6 manatı ödəniş edilib. Ötən ilin eyni dövründə bu göstərici 45 manat olub.




***XQ***

# Avropa Bankı indiyədək Azərbaycana 3,7 milyard avro kredit ayırıb

**Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) yaydığı məlumata əsasən, bu beynəxalq maliyyə qurumunun respublikamızdakı aktiv portfelinin həcmi cari ilin oktyabrın 31-nə 948 milyon avroya kimi (ödənilməmiş öhdəliklər daxil olmaqla) artıb. Bu rəqəm bank tərəfindən təqdim edilən əvvəlki göstərici ilə müqayisədə 16,5 faiz və ya 134 milyon avro çoxdur. Reallaşdırılan aktiv layihələrin sayı isə 31-dir.**




Qeyd olunub ki, portfelin 90 faizini (855 milyon avro) dayanıqlı infrastruktura yatırımlar, 7 faizini (66 milyon avro) sənaye, ticarət və aqrobiznes investisiyaları, 3 faizini (28 milyon avro) isə maliyyə institutlarına yatırımlar təşkil edir. Beləliklə, EBRD bugünədək Azərbaycana 189 layihə çərçivəsində 3 milyard 751 milyon avro həcmində investisiya yatırıb və sözügedən həcmin 83,5 faizi (3 milyard 133 milyon avro) borc götürənlər tərəfindən artıq ödənilib. Ümumi investisiyaların 26 faizi isə özəl sektorun payına düşüb.

EBRD ölkəmizdə ən çox krediti enerji sahəsinə yönəldib. “Cənub Qaz Dəhlizi” QSC-yə 500 milyon ABŞ dollarınadək kredit ayırıb. Bu kredit TANAP layihəsi üçün öhdəliklərin maliyyələşdrilməsi üçün nəzərdə tutulub. Bank texniki yardımı ilə bərpaolunan enerji üzrə hərracların keçirilməsinə dair dəstək layihəsinin həyata keçirilməsinə də xüsusi əhəmiyyət verib. Bütün bunlar deməyə əsas verir ki, EBRD Qafqaz regionunda mühüm institusional investorudur. Hazırda bank Azərbaycanda 188 layihəyə 3,6 milyard avrodan çox investisiya qoyub və əsas diqqəti ölkə iqtisadiyyatının diversifikasiyasına yardım göstərməyə yönəldib.

Beynəlxalq maliyyə qurumunun respublikamızla əməkdaşlığında əsas istiqamətlərdən biri də bərpaolunan enerji layihələrinin həyata keçirilməsidir. Bank tərəfindən aparılan tədqiqatlar da bu sahəyə marağı gücləndirir. Belə ki, maliyyə qurumunun araşdırmalarında respublikamızda ekoloji cəhəfdən təmiz hidrogen istehsalının məqsədəuyğun olması öz təsdiqini tapır. Bununla bağlı EBRD-nin dəstəyi ilə Niderlandın tanınmış “Advision” şirkətinin Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlili də mühüm önəm daşıyır. Başqa sözlə, adıçəkilən şirkətin hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alır.

Bank son illərdə bərpaolunan enerji layihələrinə daha çox diqqət yetirib. Belə ki, maliyyə qurumu təkcə 2022-ci ildə Azərbaycanda 9 layihəyə 86 milyon avro investisiya qoyub ki, həmin sərmayələrin 71 faizi “yaşıl iqtisadiyyat”ın inkişafına, bərpaolunan enerji mənbələrinə yönəlib.

Xatırladaq ki, bu maliyyə qurumu respublikamızın şərqində 240 meqavatt gücündə külək enerjisi stansiyasının tikintisini maliyyələşdirir. Bu, külək enerjisi sahəsində ölkədə ilk təşəbbüs olmaqla Qafqazda bu cür ən böyük layihədir. Stansiya istismara verildikdən sonra ildə 893 qiqavatt-saatadək xalis elektrik enerjisinin hasil olunacağı gözlənilir.

EBRD 2022-ci lin dekabr ayında Azərbaycanla birgə imzaladığı Anlaşma Memorandumu ilə təsdiqlənən investisiyalar, eləcə də texniki əməkdaşlıq və siyasi dialoq vasitəsilə “yaşıl proqram”ın həyata keçirilməsini qarşıya mühüm vəzifə kimi qoyub.

Nüfuzlu maliyyə qurumunun ölkəmizə belə ciddi maraq göstərməsi bir sıra amillərlə əlaqədardır. Əvvəla respublikamızın əlverişli coğrafi məkanda yerləşməsi, eləcə də tranzit yüklərin daşınması üçün müasir infrastruktura malik olması bu baxımdan diqqət çəkir. Belə bir əlverişli şərait səbəbindən mühüm nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycanla əməkdaşlıq etməyə calışan beynəlxalq maliyyə qurumlarının və dünya ölkələrinin sayı da ilbəil artır. EBRD-nin respublikamızla yükdaşımalar sahəsində sıx əməkdaşlıq qurmasını da məhz bu məqam şərtləndirir. Bankla Azərbaycan İnvestisiya Holdinqi arasında razılıq əldə edilməsi–niyyət sənədi imzalanması da bu məsələdən qaynaqlanır.

EBRD-nin ölkəmizlə sıx əməkdaşlığına əsaslanıb deyə bilərik ki, son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan uğurlu iqtisadi siyasətin nəticəsi olan əlverişli investisiya mühiti öz bəhrəsini verir. Məhz bunun nəticəsidir ki, ölkəmizə investisiya yatıran şirkətlərin sayı da getdikcə artır, investorların coğrafiyası genişlənir. Təkcə onu qeyd etmək kifayətdir ki, 1995–2022-ci illər ərzində Azərbaycan iqtisadiyyatına 323 milyard 104 milyon dollar investisiya qoyulub ki, onun da 50,5 faizi və ya 163 milyard 222 milyon dolları xarici investisiyalar olub.

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin məlumatına görə, Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna son 5 ildə cəlb olunan birbaşa xarici investisiyaların həcmi 5 milyard dolları ötüb. Məlumatda, həmçinin qeyd edilir ki, Covid-19 pandemiyasının yumlaşmasından sonra birbaşa xarici investisiyalar yenidən artmağa başlayıb. Belə ki, 2020-ci ildə birbaşa xarici investisiyalar 606 milyon dollar təşkil edibsə, 2021-ci ildə bu rəqəm 790 milyon dollara, ötən il isə 1,8 milyard dollara qədər yüksəlib. Qeyri-neft sektoruna yatırılmış birbaşa xarici investisiyaların ümumi birbaşa xarici investisiyalarda payı isə 21,2 faiz təşkil edib.

Hazırda ölkədə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müxtəlif layihələr həyata keçirilir, xarici investorların “bir pəncərə” prinsipindən yararlanmasına ciddi diqqət yetirilir, onlara müxtəlif istiqamətlərdə dəstək verilir. Birbaşa xarici investisiyaların təşviqi məqsədilə hazırlanan strategiyanın isə yaxın vaxtlarda təsdiqi gözlənilir.

Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, dövlət başçısı İlham Əliyev prezidentlik fəaliyyətinə başladığı ilk vaxtlardan etibarən xarici investisiyanın ölkəyə cəlbini sürətləndirmək üçün qanunvericiliyin müasirləşdirilməsi, yeni rəqəmsal həllərin tətbiqi önə çəkilib.

Azərbaycanda investisiya cəlbediciliyinin güclənməsinə təsir göstərən əsas amillərdən biri də mövcud sahədə qanunverici–institusional tədbirlərin həyata keçirilməsidir. Bu baxımdan 1995-ci il 13 yanvar tarixli “İnvestisiya fəaliyyəti haqqında” Qanun böyük əhəmiyyətə malikdir. Bu sənəd investisiyaların ölkə iqtisadiyyatına cəlbini stimullaşdırmaqla yanaşı, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Bununla bərabər, “Xarici investisiyaların qorunması haqqında” Qanun da ölkədə sərmayədarların hüquq və mənafelərinin qorunması, yerli və xarici iş adamlarına bərabər əlverişli iş şəraitinin yaradılması ilə bağlı məsələləri tənzimləyir.

***M. YAQUBZADƏ***
***XQ***

# Ceyhun Bayramovun xarici qonaqlarla görüşləri





**Noyabrın 22-də xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik Ölkələri və İnkişaf Ofisində Dövlət katibinin Avropa məsələləri üzrə müavini Leo Dokertinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazir Ceyhun Bayramov Azərbaycanın Böyük Britaniya ilə çoxşaxəli münasibətlərinə önəm verdiyini vurğulayaraq iki ölkə arasında siyasi, iqtisadi, enerji, təhlükəsizlik və humanitar sahələrdə mövcud tərəfdaşlığın daha da gücləndirilməsi imkanlarına toxunub və siyasi dialoqun intensivləşdirilməsinin yeni əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi baxımından önəmli olduğunu bildirib.

Bununla yanaşı, tərəflər iki ölkə arasında nəqliyyat, təhsil və bərpaolunan enerji sahələrində əməkdaşlıq, habelə Böyük Britaniya şirkətlərinin işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması istiqamətindəki mümkün fəaliyyəti barədə fikir mübadiləsi aparıblar.

Nazir, həmçinin həmkarını bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bu fəaliyyətə maneə törədən mina təhdidi, habelə Azərbaycanın Cənubi Qafqaz regionunda dayanıqlı sülhün təsis edilməsi planları və bu istiqamətdə atılan praktiki addımlar, eyni zamanda, Ermənistanla normallaşma gündəliyi barədə məlumatlandırıb.

Görüşdə yeni əməkdaşlıq istiqamətləri və qarşılıqlı maraq kəsb edən digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

***

**Dünən xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Taha ilə də görüşüb.**

Görüşdə Azərbaycan və İƏT arasında mövcud əməkdaşlıq gündəliyi və əlaqələrin perspektivləri, İƏT-in gələn il keçiriləcək Zirvə görüşünə və digər yüksək səviyyəli tədbirlərə hazırlıq məsələləri və bu çərçivədə ölkəmizin planları, habelə bölgədə cari vəziyyət müzakirə olunub.

C.Bayramov təşkilatla qurulan sıx əməkdaşlıq əlaqələrini məmnunluqla vurğulayıb. Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin 5-ci konfransı çərçivəsində təşkilatın Əmək Mərkəzinin Bakıda açılışının münasibətləri daha da irəli aparacağı qeyd olunub.

Aparılacaq birgə işlərin əmək, məşğulluq, sosial müdafiə və insan kapitalının inkişafı sahəsində üzv ölkələrin əməkdaşlığının genişləndirilməsinə xidmət edəcəyi diqqətə çatdırılıb.

**XQ**

# Mina qurbanları: “AŞPA Prezidenti, bizi qəbul edin və dinləyin!”

**60-a yaxın mina qurbanı, onların doğmaları və vətəndaş cəmiyyəti təmsilçiləri Avropa Şurası Parlament Assambleyasının prezidenti Tini Koksa birgə müraciət ünvanlayıblar.**

Müraciətdə AŞPA-nın Azərbaycan üzrə məruzəçisinin Bakıda olarkən onlarla görüşlərdən imtina etməsini Avropa Şurası dəyərlərinin ələ salınması, insan hüquq və azadlıqlarına qarşı hörmətsizlik kimi qeyd olunur. Bildirilir ki, bu davranış Ermənistanın mina terroruna birbaşa dəstək olmaqla iyrənc hərəkətdir.

“Yaxın müddətə qədər işğaldan azad edilən ərazilərdə 1 milyondan artıq mina və partlamamış hərbi sursat olması ehtimal edilirdi. 44 günlük müharibədən sonra da Ermənistan Laçın yolu ilə minalar daşıyaraq Azərbaycan ərazilərində basdırmaqda davam etdi. Avropa Şurası Parlament Assambleyası buna etiraz etmək əvəzinə, Laçın yolunda Ermənistanın qanunsuz hərbi birləşmələrinin və yüklərinin Azərbaycan ərazilərinə maneəsiz keçidini müdafiə etdi. Bu il sentyabrın 19-20-də uğurlu antiterror tədbirləri nəticəsində nəzarətə götürülmüş ərazilərdə daha 500 mindən artıq mina və partlamamış sursat olduğu üzə çıxdı. Laçın yolu vasitəsilə Ermənistanın Azərbaycana mina daşımasını qızğın müdafiə edənlərdən biri elə indi Azərbaycana göndərdiyiniz Liz Kristoffersen idi.

Bizim müraciətimizdən sonra da Avropa Şurası Parlament Assambleyasının Prezidenti kimi siz buna susacaqsınızsa, daha insan hüquq və azadlıqlarından danışmağa mənəvi haqqınız olmamalıdır. Bizi qəbul edin və dinləyin. Ermənistanın mina terrorundan necə əziyyət çəkdiyimizi, nələr itirdiyimizi, ailələrimizin, yaxınlarımızın əlilliyimizə görə hansı iztirablar içərisində olduğunu görün. Əgər Avropa Şurası, Avropa Şurasının Parlament Assambleyası həqiqətən insan hüquqları təsisatıdırsa, bizi eşitmək, bizə kömək etmək onun əsas öhdəliyi olmalıdır”- deyə müraciətdə bildirilir.

**XQ**

# Ədliyyə Nazirliyində bayram mərasimi





**Noyabrın 22-də Ədliyyə Nazirliyində ədliyyə orqanlarının 105 illiyi və peşə bayramı günü münasibətilə təntənəli yığıncaq keçirilib.**

Ədliyyə naziri Fikrət Məmmədov peşə bayramı günü münasibətilə ədliyyə işçilərini təbrik edib, builki bayramın “Heydər Əliyev İli”ndə və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətənimizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi ilə bağlı tarixi Zəfərimizin yaşatdığı yüksək qürur hissi ilə qeyd olunduğunu bildirib.

Ümummilli liderin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri, Azərbaycan ədliyyəsinə daim xüsusi diqqət göstərdiyi vurğulanıb, yubiley ilində “Heydər Əliyev və Azərbaycan ədliyyəsi” xüsusi kitabının hazırlandığı bildirilib.

Nazir Prezident İlham Əliyevin 20 illik zəfər yolundan danışaraq ölkəmizin davamlı sosial-iqtisadi inkişafını, beynəlxalq aləmdə nüfuzunun günbəgün yüksəlməsini qeyd edib. Bildirib ki, Ümummilli liderin şah əsəri olan müstəqil Azərbaycan dövləti özünün ən qüdrətli dövrünü yaşayır, bayrağımız azad edilmiş bütün torpaqlarımızda – Şuşada, Xankəndidə vüqarla dalğalanır.

Dövlətimizin başçısının rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəal iştirakı ilə doğma torpaqlarımızda sürətli bərpa-quruculuq işləri aparılaraq Qarabağ və Şərqi Zəngəzur dirçəlir, soydaşlarımız öz dədə-baba yurdlarına dönərək orada həyat yenidən qaynayır.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Ali Məhkəmənin sədri İnam Kərimov çıxış edərək ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə təbriklərini çatdırıb, insan hüquqlarının və qanunun aliliyinin təmin olunması sahəsində ədliyyə orqanlarının əməkdaşlarına uğurlu fəaliyyət arzulayıblar.

**XQ**

# Bakıda BƏƏ-nin Müstəqillik Günü

**Dünən Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – müstəqilliyin 52-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edilib.**



BƏƏ-nin səfiri Məhəmməd Əl Bluşi ölkəsinin inkişaf tarixindən danışıb. Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasından artıq 30 ildən çox vaxt keçdiyini qeyd edən diplomat Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin hörmət və əməkdaşlıq prinsiplərinə əsaslandığını bildirib.

Birləşmiş Ərəb Əmirlikləri xalqını milli bayram münasibətilə təbrik edən elm və təhsil naziri Emin Əmrullayev ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu söyləyib. Nazir bildirib ki, Azərbaycan BƏƏ ilə münasibətlərə xüsusi önəm verir.

Tədbir konsert proqramı ilə davam edib.

**XQ**

# Azərbaycan Prezidentinin çağırışları fransızdilli mediada

**Fransa, Kanada və İsveçrə mətbuatında Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçirilən “Dekolonizasiya: Qadınların gücləndirilməsi və inkişaf” mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində səsləndirdiyi fikirlərlə bağlı silsilə məqalələr dərc olunub.**

Məqalələrdə Azərbaycan Prezidentinin Fransanı Qafqazda yeni müharibələrə zəmin yaratmaqda ittiham etdiyi vurğulanıb. Dövlətimizin başçısının müraciətindən bu fikirlər sitat kimi gətirilib: “Fransa təkcə keçmiş və indiki müstəmləkələrində deyil, eyni zamanda, bizim regionumuzda – Cənubi Qafqazda sabitliyi pozur, separatizm meyillərini və separatçıları dəstəkləyir. Ermənistanı silahlandırmaqla militarist siyasət həyata keçirir, revanşist qüvvələri təşviq edir, regionumuzda yeni müharibələrin başlaması üçün zəmin hazırlayır”.

Qeyd edilib ki, beynəlxalq konfransın iştirakçılarına ünvanlanmış müraciətdə


LA VOIX DU NORD
La France favorise «une nouvelle guerre» dans le Caucase, selon l'Azerbaïdjan

Fransanın Qafqazda dağıdıcı rolu pislənilib, Parisin dəstəyinin Ermənistan hökumətində Azərbaycana növbəti hərbi təcavüz illüziyalarının yaratdığı diqqətə çatdırılıb.

# Sumqayıtda Ulu öndərin xatirəsi anılıb



**Sumqayıtda Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbir keçirilib.**

Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev, Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, general-mayor, Vətən müharibəsi qəhrəmanı Kənan Seyidov və digərləri çıxış edərək Ümummilli liderin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

**XQ**

# Kimlər Xankəndiyə qayıdacaq?



**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ərazisi işğaldan azad olunmuş müxtəlif rayonlardan olan məcburi köçkünlərdən Xankəndiyə köçməklə bağlı çoxsaylı müraciətlər gəlir.**

Komitədən bildirilib ki, hazırda işğaldan azad olunmuş ərazilərdə, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində, bərpa edilən və yenidən tikilən yaşayış məntəqələrinə köçürülmə aparılır. Bu zaman məcburi köçkünlər yalnız qeydiyyatda olduqları şəhər, rayon, kənd və qəsəbə üzrə daimi yaşayış sahəsi ilə təmin edilir. Buna uyğun olaraq Xankəndi şəhərinə də həmin ərazidən olan məcburi köçkünlərin köçürülməsi nəzərdə tutulur.

**XQ**

# Laçında məskunlaşma davam edir



**Dünən səhər Bakı şəhərindən 81 nəfərlik 21 ailə Laçın şəhərinə yola salınıb.**

Doğma yurduna qayıdan ailələri Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və “Bakı Abadlıq Xidməti” MMC-nin nümayəndələri qarşılayıblar. Bununla da, Laçın şəhərində daimi məskunlaşan ailələrin sayı 346-ya, sakinlər isə1326 nəfərə şatıb.

Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**XQ**

Sənət yollarında

# Səhnəmizin fədakar aktyoru



**Xalq artisti Hacı İsmayılovu kino məşhurlaşdırsa da, o, əvvəldən teatr aktyorudur. Hazırda Teatr Xadimləri İttifaqında sədr səlahiyyətlərini yerinə yetirir. 80 yaşının astanasında sənətkarın keçdiyi həyat yoluna onun öz monoloqunda nəzər saldıq.**

## Uşaqlıq

Müharibə vaxtı 1944-cü ilin yanvarın 22-də dünyaya gəlmişəm. Amma müharibənin törətdiyi çətinliklərindən xəbərsiz idim. Bütün günü İçərişəhərdəki o daş küçələrdə, qala divarlarının üstündə ora-bura qaçırdıq. Top əvəzinə köhnə corabları iç-içə yumrulayıb futbol oynayırdıq. Hərdən imkan düşəndə gedib həmin küçələrdən keçirəm, o günləri xatırlayıram.

Bir əlimdə çanta, o birində mürəkkəb şüşəsi, məktəbə gedirdim. Uşaqlarla dalaşanda o şüşə tez-tez sınır, üst-başım mürəkkəbə bulaşırdı. Kasıb ailədən olduğum üçün tay-tuşlarımdan pal-paltar sarıdan geri qalmağım mənə təsir edirdi. Qurduğum xəyalları teatrda canlandırmaq istəyirdim. Buna görə də məktəbdə bir idman dərsinə, bir də teatr dərnəyində məşqlərə həvəsli idim. Ölkədə tanınan bir müəllimimiz vardı – Zərbəli Səmədov. Özfəaliyyət dərnəyində çıxışımı görəndən sonra mənə dedi ki, bala, sən get, artist ol. O vaxt dərnəklər uşaqların yetişməsində çox böyük rol oynayırdı.

## Teatrda ilk addımlar

Yuxarı siniflərdə oxuyanda həm Lütfi Məmmədbəyovun xalq teatrına gedirdim, həm də futbolla məşğul olurdum, yaxşı qapıçı idim. Bir müddət belə davam elədi, sonra hiss etdim ki, incəsənətə meylim daha çoxdur və bu, idman istəyimi üstələdi. Məktəbi bitirəndən sonra 2 il teatr institutundan kəsildim. Əvvəlki ildə boy-buxunum Adil İsgəndərovun xoşuna gəlmədi. Növbəti dəfə miz üstündə ritmi tuta bilmədim, əlim əsdi. Nəhayət, 3-cü cəhddə Rza Təhmasib məni qəbul elədi. Məlik Dadaşov, Rza Sarabski, Nəsir Sadıqzadə kimi müəllimlərdən dərs aldım. Sonra bütün kursumuzu İrəvana, Azərbaycan Dövlət Dram Teatrını bərpa etməyə göndərdilər. İlk rollarım da o teatrın səhnəsində oldu. Amma ata-anam yaşlı, mən də yeganə övlad olduğum üçün sonra qayıtdım Bakıya. Bir il institutda sənətdən dərs dedim, amma teatrda işləmək istəyirdim. Bu arada Sumqayıt Teatrı açıldı və mən də orda işləməyi seçdim.

## Böyük səhnədə

1970-ci ildə məni Akademik Milli Dram Teatrında işə qəbul etdilər. Burda nəhəng aktyorlarla birgə səhnəyə çıxıb adicə nizə tutmağın özü bir etimad idi. Yadıma düşür ki, ilk rollarımdan biri Mirzə Fətəli Axundovun "Hekayəti xırs quldurbasan" tamaşasında bircə kəlmə sözü olan Kərəm olub. Səhnəyə çıxıb "Qaçsa, qaçar, eee" deyirdim, vəssalam. Daha çox səsimdən istifadə edirdi rejissorlar.

Tofiq Kazımovun "Hamlet" tamaşasında Hamletin atasının – kölgənin səsini çıxarırdım, özü də səhnənin altından. Əşrəf Quliyev, Məmmədkamal Kazımov, Mehdi Məmmədovun tamaşalarında kiçik rollarda oynayırdım. Tədricən teatrda rollarım böyüdü və artdı. İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" tamaşasında Dördüncü qaçaq, Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" pyesində Kişi, Səməd Vurğunun "İnsan" dramında Alman zabiti, Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı"nda Hacı Cəfər, Nəbi Xəzrinin "Mirzə Şəfi"sində Barataşvili, Hüseyn Cavidin "İblis"ində Yaralı zabit və sair… Anarın "Sizi deyib gəlmişəm" pyesində baş rol – Məmmədhəsən əmi də, deyilənə görə, uğurlu alınıb.

## Ekranda

Kinoda xırda rollarım çox olurdu. İlk böyük rolum Rasim Ocaqovun "Ad günü" filmində Mustafa oldu. Rasim müəllim məni kinostudiyasının kafesində gördü və sınaq çəkilişlərinə çağırdı. Ssenarini oxuyunca obraz o qədər ürəyimə, xarakterimə yatdı ki, ruhən dönüb oldum Mustafa. Moskvanın sifarişi ilə çəkilən həmin filmə 1978-ci ildə Azərbaycan Dövlət mükafatı, 1979-cu ildə Bakıda VIII Ümumittifaq televiziya filmləri festivalında I mükafat və 1980-ci ildə Berlində ADR televiziyasının diplomu verildi.

Onda artıq evli idim. O filmə çəkiləndə oğlumun 2, qızımın 1 yaşı vardı. Deyirlər, qızın ayağı sayalı olur – bunu öz təcrübəmdə gördüm. "Ad günü"ndən sonra Rasim Ocaqovun 5 filminə çəkildim. Axırıncı film "Həm ticarət, həm ziyarət" oldu. Mənim kinoaktyor taleyimi Rasim Ocaqov müəyyən edib, – desəm, düz olar. İndiyə qədər çoxları məni o rola görə şəkili bilir, adımı da küçədə Mustafa çağırırlar. Heyfsləndiyim odur ki, "Həm ticarət, həm ziyarət"dən sonra uzun müddət kinoya çəkilməmişəm, illər gedib.

Amma teatr mənim gündəlik işimdir. İndi 79 yaşım var, əlbəttə yaş özünü göstərir. Onunla təsəlli tapıram ki, elə böyük aktyorlarımız olub ki, heç bu yaşa çatmayıblar. Mən 20-ci əsrdə yaşamışam, 21-ci əsrdən yaşadığım illər qənimətdir.

## Teatr Xadimləri İttifaqında

Düz 8 il Teatr Xadimləri İttifaqında sədr müavini olmuşam, indi sədri əvəz edirəm. Məsuliyyətli işdir, amma kollektivlə əl-ələ verib işləyirik. Çoxlu tədbirlərimiz olur. Bu il mayın 15-də Mədəniyyət Nazirliyi ilə birgə "Qonaq teatr" layihəsinə start vermişik. Bölgə teatrlarını ittifaqa dəvət edirik, A.M.Şərifzadə adına səhnədə tamaşalarına baxırıq. Artıq 8 teatr qonağımız olub.

İttifaqın nizamnaməsinə görə, növbəti seçki gələn ilin oktyabrına düşür. O vaxta qədər mən sədr səlahiyyətlərini yerinə yetirəcəyəm, seçkilərdə isə yeni sədr seçiləcək. Görüləcək işlərimiz çoxdur.

***Ramilə QURBANLI***
***XQ***

# Rasim Ocaqovun xatirəsi anılıb




**Bu gün Azərbaycan kino sənətinin görkəmli nümayəndəsi, rejissor, operator, Dövlət mükafatı laureatı, Xalq artisti Rasim Ocaqovun anadan olmasının 90 illiyi tamam olur.**

Bu münasibətlə tanınmış incəsənət və mədəniyyət xadimləri, ictimaiyyətin nümayəndələri ikinci Fəxri xiyabana gələrək sənətkarın məzarını ziyarət edib, önünə əklil və tər çiçəklər düzüblər.





Anım mərasimində mədəniyyət nazirinin müavini Murad Hüseynov Azərbaycan kino sənətinə dəyərli töhfələr vermiş Rasim Ocaqovun mənalı ömür yolu və zəngin yaradıcılığı barədə danışıb. O qeyd edib ki, Rasim Ocaqovun sənəti, yaradıcılığı milli kinomuzun, xalqımızın dəyərli incisidir. Kinomuzu təkcə respublikamızda yox, eyni zamanda, beynəlxalq müstəvidə də tanıdıb. Çəkdiyi filmlər görkəmli sənətkarı yaşadıb və yaşadacaq.

Zamanın və kinonun dəyişdiyini söyləyən Xalq artisti Fəxrəddin Manafov deyib: "Təəssüflər olsun ki, heç nə əbədi deyil. Peşəyə gəlmək, aktyor olmaq, filmlərə çəkilmək olar. Amma lazım olan zaman lazımi yerdə olmaq şansdır. Mən aktyor olacaqdım, lakin Rasim müəllim mənim həyatımı dəyişdi. Altı filmdə rol almışam. Mən o filmlərdə nə isə edə bilmişəmsə, bu mənim üçün böyük şərəfdir".

Rasim Ocaqovla birgə çalışmış Xalq artisti, kinorejissor Vaqif Mustafayev onunla bağlı xatirələrini bölüşüb: "Rasim Ocaqov haqqında ümumi söz demək mümkün deyil. Onunla ilk dəfə "Qatır Məmməd" filmində tanış olduq. Emin Sabitoğlu, Rasim Ocaqov və mən çox zaman Azərbaycan kinosunun gələcəyi barədə söhbətlər edərdik. Mənim çəkdiyim "Bəyin oğurlanması" filmini çox bəyənmişdi. Bundan sonra mən Rasim Ocaqovun bir daha sənətə və sənətkara necə həssas münasibətinin şahidi oldum".

Xalq artisti Şəfiqə Məmmədova vurğulayıb ki, kino Rasim Ocaqovun varlığı idi. O qeyd edib ki, Rasim Ocaqov kino sənətimizdə bir ocaq yandırdı və bu ocaq heç zaman sönməyəcək.

Korifey sənətkarların heç vaxt unudulmayacağını söyləyən Xalq artisti Şeyx Əbdül Mahmudbəyov qeyd edib ki, onlar öz sənətləri ilə unudulmazdılar. Gərək geriyə dönüb baxanda yaxşı sənət əsərləri qoyub gedəsən. Bu mənada Rasim Ocaqov xoşbəxt sənətkardır.

Xalq artisti Oqtay Mirqasımov Rasim Ocaqovun Azərbaycan kinosunun inkişafı naminə gördüyü işlərdən söhbət açaraq onun xatirəsinin hər zaman əziz tutulacağını vurğulayıb.

Anım mərasimində çıxış edən natiqlər Rasim Ocaqovla bağlı xatirələrini bölüşüb və onun Azərbaycan kino tarixinə bəxş etdiyi bənzərsiz ekran əsərlərindən danışıblar.

***XQ***

# Qarabağ meşələri də soyqırımına məruz qalıb

**Meşələr Qarabağın ümumi ərazisinin 36 faizini təşkil edir. Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi həmin ərazilərdə bir çox bitki növlərinin məhvinə səbəb olub. Minlərlə hektar meşə sahəsi məhv edilib.**





2012–2016-cı illərdə Qarabağda meşələrin qırılması faktı Ermənistandakı göstəricidən 2,3 dəfə yüksək olub. 2014–2018-ci illərdə bölgədə 404 min 800 kubmetr meşə qırılıb. Həmin dövrdə bu göstərici Ermənistanda 175 min 300 kubmetr təşkil edib. Təkcə 2017-ci ildə Qarabağda 102 min 488 kubmetr meşə doğranıb. Beləliklə, işğal altında olan ərazilərdəki 260 min hektar yaşıl örtüyün 54 min hektarı 30 illik işğal dövründə yer üzündən silinib. Bu müddət ərzində qiymətli ağac növləri – qoz, palıd, Eldar şamı, xurma və xüsusi mühafizə altında olan digər ağaclar oduncaq tədarükü üçün qırılıb, mebel, çəllək və tüfəng qundağı istehsalı üçün Ermənistana aparılıb.

## Ekoloji tarazlığa divan tutulub

Azərbaycanın heyvan və bitki aləmi zənginliyi ilə seçilir. Meşələrimizdə 460 növdən çox yabanı ağac və kol növlərindən 95 ağac (Azərbaycanda 107 növ), 290 kol və 19 yarımkol növü Qarabağ və ona bitişik ərazilərdə yayılıb. Onlardan 70-i endemikdir, yəni dünyanın başqa heç bir yerində təbii mühitdə bitmir. Nadir ağacların çoxy isə işğal dövründə kəsilib.

Qarabağ meşələrinin qırılması isə geniş əraziləri əhatə edib. Təkcə Tərtər rayonu ərazisində mədənlərin istismarı ilə əlaqədar yüzlərlə hektarlıq ərazidə meşələr məhv olunub. "Dəmirli" dağ-mədən kompleksinin tikintisi zamanı 82 hektara yaxın meşə örtüyü sıradan çıxarılıb. Nəticədə, ətraf mühitə böyük ziyan dəyib, çaylar və yeraltı sular ağır metallarla çirklənib. Uzun illər bu ərazidə yanğınlar təşkil edilib, su hövzələri kimyəvi çirklənməyə məruz qalıb. "Qızılbulaq" və "Heyvalı" yataqlarının istismarı zamanı da eyni vəziyyət müşahidə edilib. Sərsəng su anbarından kanalların çəkilişi zamanı ətraf ərazilərdə ağaclar kəsilib. Tərtərdən Ağdərəyə gedən yolun kənarındakı ağaçlar da qırılıb, yanacaq kimi istifadə edilib.

İşğal dövründə Ağdam rayonunun da təbii sərvətləri talan edilib. Rayonun meşələrində 85 ədəd Şərq çinarı növünə məxsus qədim ağaclar təbiət abidələri kimi qeydə alınmışdı. Bunlardan 71-i Boyəhmədli kəndində idi, hündürlüyü 25 metr, yaşı isə 400–440 il təşkil edirdi. İşğal dövründə yaşlı Şərq çinarı növündən olan ağaclar doğranaraq Ermənistana aparılıb.

Rayon ərazisində ümumi sahəsi 732 hektar təşkil edən qiymətli püstə meşəsi var idi. Nadir nəbatat obyekti olan həmin ağacların yaşı 370–400 il təşkil edirdi. Ağdam rayonunun Yusifcanlı yaşayış məntəqəsinin cənubunda, Novruzlu kəndinin şimal-şərqində meşə, yaşıllıq və bağ sahələrinin demək olar ki adı qalıb. Meşələr qırılaraq Ermənistan silahlı qüvvələrinə məxsus hərbi texnikanın vasitəsilə daşınıb. Ağdam şəhərində isə yaşı 150–250 il olan 6, Şelli, Seyidli, Sarıhacılı, Əliağa kəndləri ərazisində yaşı 100–250 il olan 8, Böyük Bəhmənli kəndi ətrafında yaşı 400 il olan 7 ədəd Şərq çinarı məhv edilib.

Rayonun işğal altında olmuş Novruzlu, Yusifcanlı, Mərzili, Baş Qərvənd, Kəngərli, Çəlik, Qaradağlı–Kəngərlisi, Göytəpə, Gülçülük kəndlərində və Uzundərə, Yedixırman, Şahbulaq dağ massivlərində erməni hərbçiləri, ümumilikdə, 17 min 457 hektar otlaq sahəsini yandırıblar. Bu zaman "Qırmızı kitab"a və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı siyahısı"na düşmüş müxtəlif sayda turac, qırqovul və gürzə məhv olub.

Xocavənd rayonunun ərazisində də meşələr qırılıb. Bu barədə ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov bildirib ki, işğal dövrünədək adıçəkilən rayonun meşə fondunun ümumi sahəsi 22 min 428 hektar təşkil edib və bunun 20 min 403 hektarı meşə ilə örtülü olub.

Xocavənd ərazisində təbiət abidəsi statuslu 12 qədim ağac (7 Şərq çinarı, 5 azatağacı) və xüsusi qiymətli azatağacı meşə sahəsi olub. Peyk təsvirlərinə əsasən işğal dövründə 3 min 537 hektardan artıq meşə sahəsi məhv edilib.

Eyni vəziyyət Füzuli rayonunda da müşayiət olunub. Burada işğal dövrünədək meşə fondunun ümumi sahəsi 124 hektar təşkil edirdi və bunun 108 hektarı meşə ilə örütülü idi. İşğal dövründə 57 hektar meşə sahəsinin məhv edildiyi müəyyən olunub. Vaxtilə rayon ərazisində təbiət abidəsi statusuna malik 11 ədəd Şərq çinarı olub və bu ağacların hamısı işğal dövründə məhv edilib. Ermənilər yaşı 100 illərlə ölçülən bu ağacları kəsməklə yanaşı, onların kötüklərini də yandırıblar.

Qədim tarixə malik Topxana meşəsi də ciddi dəyişikliyə uğrayıb. İşğaldan öncə meşə palıd, fıstıq, çinar, qarağac və s. kimi bitkilərlə zəngin idi. Onlardan yalnız mebel sənayesində deyil, həm də yanacaq kimi istifadə olunub. Bu məqsədlə Haça Yal adlanan meşə sahəsindən ermənilər 1500-2000-ə yaxın palıd ağacını qıraraq Xankəndiyə aparıb, mebel istehsalında istifadə ediblər. Xəlifəli, Qaybalı və Daşaltı kəndlərinin ərazilərində olan meşələr və ağaclar qırılaraq odun kimi istifadə edilib. Şuşa şəhərinin özündə də müxtəlif növ iri diametrli ağaclar kəsilib.

Bundan başqa, ermənilər Azərbaycan rayonlarının ərazisində işğal dövrü ərzində mütəmadi olaraq qəsdən yanğınlar törədib. Bu da torpaq və meşə massivlərinin yanaraq kül olmasına gətirib çıxarıb. Bu proses hələ 2000-ci illərin əvvəllərində beynəlxalq təşkilatlarda narahatlıq doğurmuşdu. Qəsdən törədilmiş yanğınlar nəticəsində, ümumilikdə, 110 min hektardan çox ərazi yanmış və məhv olmuşdur. Yanğın zamanı torpağın münbit yuxarı təbəqələri, ot və kollarla birlikdə bütün canlı orqanizmlər də həlak olmuşdu.

Göründüyü kimi, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətini, o cümlədən meşələrin qırılması, yanğınların törədilməsi və ətraf mühitə ziyan vuran digər əməllərini davam etdiriblər.

## Meşələrə yenidən nəfəs gəlir

Qarabağ 44 günlük müharibə zamanı işğaldan azad edildikdən sonra ermənilərin qeyri-qanuni əməllərinə də son qoyuldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə oldugu kimi, ekoloji problemlərin həlli sahəsində də böyük işlər görülməyə başlanıldı. Ətraf mühitin mühafizəsi, insanların saglamlıgı, ekoloji tarazlıgın bərpası və s. məsələlər xüsusi əhəmiyyət kəsb etdi. İşğaldan azad edilmiş ərazilərdə meşəsalma tədbirlərini nəzərdə tutan "2022–2026-cı illər üzrə Meşə Fondunun Bərpası Proqramı" hazırlandı. Proqram çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində 30 min hektara yaxın meşə fondu sahəsində meşəbərpa tədbirlərinin icrası nəzərdə tutuldu.

Bu barədə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Mina təhlükəsi ilə mübarizə – partlayıcı sursatların ekosistemə təsiri" mövzusunda keçirilən ictimai dinləmədə deyib: "İşğal dövründə 54 min hektardan artıq meşə sahəsi məhv edilib. Meşələrin bərpası ilə bağlı proqram hazırlanıb və meşəbərpa işlərinin sürətlə aparılması üçün imkanlarımız var. Əlbəttə ki, bu proses minatəmizləmə planı ilə uzlaşdırılmalıdır".

Hazırda işğaldan azad edilmiş ərazilərdəki meşələr yenidən bərpa olunur. Ümumilikdə, 160 hektar sahədə 124 mindən çox ağac tingi əkilib, 3 min kiloqram palıd və Şərq çinarı toxumu səpilib. 2023-cü ilin sonunadək 100 hektardan çox ərazidə meşə-bərpa tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulub. Salınmış yaşıllıqların suvarılması məqsədilə damcılı suvarma sistemi quraşdırılıb. Görülən işlər Qarabağ meşələrinə yeni nəfəs gəldiyini göstərir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# İnci saflığına kim zəhər qatır?

## İçməyə yaramayan su xroniki ölüm mənbəyidir

**Son illər əhali arasında ürək-damar, xərçəng, autizm, daun sindromlu xəstəliklərin sayının sürətlə çoxalmasının səbəbi, ilk növbədə, keyfiyyətsiz su, qida, geni dəyişdirilən məhsulların davamlı şəkildə çoxalması ilə əlaqələndirilir. Mütəxəssislər bu təhlükəli bəladan danışanda konkret faktlara istinad edirlər.**

Məsələn, hansı qarışıqlardan hazırlanması bilinməyən, tərkibində, təqribən, 140-dan çox kimyəvi maddə olduğu bildirilən siqaretlərin çəkilməsi, "enerji içkilərinin" geniş yayılması, istehlak bazarında mənşəyi qeyri-məlum ətlərdən və digər məhsullar olduğu iddia edilən və daha ucuz qiymətə təklif olunan kolbasa və sosislər immun sistemini zəiflədir və ürək tutmasına, qəfil ölümə gətirib çıxarır. Orqanizmdə həzmi çətinləşdirən trans yağların əksər qida məhsullarının hazırlanmasında istifadə edilməsinin damar tıxanıqlığına səbəb olması faktını da bura əlavə etsək, vəziyyətin təhlükəliyi barədə aydın təsəvvür yaranar.



Bu yazıda isə əsasən, istehlak bazarında mühüm yer tutan və mağazalarda gözəgəlimli qablaşdırmada istehlakçılara təqdim olunan müxtəlif həcmli suların keyfiyyətsizliyi ilə bağlı ekspertlərin səsləndirdikləri fikirlər diqqətə çatdırılır. Yeri gəlmişkən, su tarix boyu insanlığın qədir-qiymət verdiyi misilsiz həyat qaynağı sayılıb. Təsadüfi deyil ki, ulu Nizami Gəncəvi suyu inci saflığı qədər müqəddəs sayırdı. Ekspertlərin iddialarının nə dərəcədə həqiqət olduğu isə yalnız qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən səlahiyyətli qurumlara məxsus fakt və dəlillər əsasında təsdiqlənməlidir. Mütəxəssislərin sözlərinə görə, mərkəzləşdirilmiş xətlərdən, quyulardan, hətta kranlardan götürülən su müxtəlif süzgəclərdən keçirilməklə qablaşdırılaraq satışa çıxarılır. Bu zaman emal edilən suyun etiketlənməsi də qanunvericiliyin tələblərinə uyğun olmur, bir sıra hallarda, hətta onun mənbəyi göstərilmir. Başqa sözlə, əhaliyə verilən su ilə qablaşdırma aparılsa da, məhsulun üzərindəki etiketlərdə onun müxtəlif təbii mənbələrdən, dağlardan və bulaqlardan gətirildiyi, müalicəvi xüsusiyyətlərə malik olması göstərilir. Bununla da, qanunvericiliyin tələbləri kobud şəkildə pozularaq istehlakçılar aldadılır, əhalinin sağlamlığı üçün ciddi təhlükə yaradılır.

Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) müəyyən vaxtlarda yayılan məlumatlarında da bu fikir aparılan araşdırmalarla, həyata keçirilən yoxlama-nəzarət tədbirləri ilə təsdiqlənir və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinin kobud şəkildə pozulduğu vurğulanır. Qurumun müxtəlif vaxtlarda mediada yayılan məlumatlarından da aydın görünür ki, paytaxtda içməli suyun emalı və qablaşdırılması müəssisələrində qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktlar, sanitariya norma və qaydaları davamlı olaraq pozulur. Belə hallar daha çox mərkəzləşdirilmiş sistemdən gələn suların (əhaliyə verilən sular) süzgəcdən keçirilərək qablaşdırılmasında müşahidə olunur.

Həmin müəssisələrdə (sexlərdə) təkrar istifadə üçün nəzərdə tutulan qablaşqurğular vasitəsilə suyun təmizləndiyi söylənilir. Lakin mütəxəssis fikirlərində bunun tam əksi ifadə olunur, su filtlərinin suda insanın sağlamlığı üçün vacib olan mikroorqanizmlərin, kalsium, potasium, maqnezium, fosfor, sodium, dəmir, mis və sink kimi mineralların sıradan çıxarıldığı deyilir.

Mütəxəssislərin fikrincə, su filtrləri vaxtaşırı açılıb təmizlənməli və onun daxilindəki kimyəvi elementlər yenilənməlidir. Əks təqdirdə, suyun kimyəvi təmizlədiyini iddia edilən cihaz bioloji çirklənməyə və mikroorqanizmlərin çoxalmasına səbəb olur. Bu vəziyyət xüsusilə infeksion xəstəliklərə gətirib çıxarır.

Belə şəraitdə isə suyun zərərli bakteriyalardan təmizlənməsi üçün onu qaynatmaq qərarına gəlinir. Lakin bu halda onun tərkibindəki mineral maddələr məhv olur. Bu səbəbdən də filtrdən keçirilən suyu içməyə üstünlük verilir. Lakin qeyd etdiyimiz kimi, filtrlər keyfiyyətsiz olduqda qurğudakı kömür keyfiyyətini itirir, nəticədə ondan alınan su qaynadıldıqda zərərli dioksin yaradan xlor qalır.

Su filtrinin satışı ilə məşğul olan şirkətlərin fəaliyyəti haqqında fikir bildirən ekspertlər onu da söylədilər ki, suyun tərkibini yoxlamaq üçün istifadə olunan cihazlar, yaxud belə demək mümkünsə, iki dəmir parçası ilə məhsulun keyfiyyət göstəricisini müəyyənləşdirmək, bununla da doğru nəticə əldə etmək inandırıcı deyil. Çünki müayinə zamanı şirkət nümayəndələrinin "cihaz" adlandırdıqları həmin dəmir parçaları suyun tərkibindəki mineralları (kalium, kalsium, maqnezium və digər faydalı maddələr) parçalayır, bundan sonra isə su palçıq, bulanıq hal alır. Daha sonra isə bu, suyun üzərində aydın nəzərə çarpır. Belə bir "analiz" isə əslində, istehlakçını aldatmaqdır...

Bir sözlə, özəl qurumların su üzərində apardıqları sınaqların heç bir əsası yoxdur. Onlar insanların bu sahədəki məlumatsızlığından istifadə edib onlara kələk gəlirlər. Bundan əlavə, hazırda Bakıda satılan filtrlərin çoxunun sertifikatı yoxdur. Onların bəziləri "əks-osmos" tiplidir. Belə qurğularla isə suyun keyfiyyətini müəyyənləşdirmək mümkün deyil.

Tanrının insana bəxş etdiyi əvəzsiz nemətə uzanan haram əllər zamanında kəsilməsə, sağlamlığımız daha ciddi təhlükə qarşısında qalacaq.

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Mən Fransanın Marsel şəhərində 2500 nəfərin qatıldığı Dünya Su Konqresinin iştirakçısıyam. Həmin tədbirdə suyun ilahi nemət olduğunu, onun qeyri-adiliyinin bir daha anladım. Su yeganə maddədir ki, nə rəngi, nə də qoxusu var. Su Yer üzündə dəyişməyən yeganə maddədir. İnsanlar onu çirkləndirsələr də, ərşə qalxıb təmiz halda yenidən yer üzünə qayıdır. Təəssüflər olsun ki, su biznesi ilə məşğul olanlar bu ilahi, əvəzsiz nemətdən sui-istifadə hallarına yol verirlər.

Marsel konqresindən qayıtdıqdan sonra su mənbələrində monitorinqlər aparmaq üçün "Azərsu" rəhbərliyindən icazə aldıq. Dünyadakı təcrübənin burada necə tətbiq olunduğunu öyrəndik. Azad İstehlakçılar Birliyinə daxil olan çoxsaylı şikayətlər, əsasən, qablaşdırılmış sularla bağlı olduğundan bu məsələyə diqqət yetirdik. Qeyd edək ki, son illər bu əvəzsiz nemətdən, necə deyərlər, qaz vurub qazan doldurmaq məqsədilə istifadə edən su süzgəclərinin satışı ilə məşğul olan qrupların da xeyli fəallaşması müşahidə olunur. Onlar əhali arasında özlərinə sərf edən müəyyən təbliğat işləri aparır, primitiv ekspertizalar həyata keçirirlər. Həmin qrupların üzvləri iddia edirlər ki, gələn sular içməyə yararlı deyil, təhlükəlidir və s. Bir sözlə, hazırda bazarda bu sahədə çox ciddi hərc-mərcliklər hökm sürür.

Azərbaycanın tarixində, bəlkə ilk dəfə olaraq, 10 il öncə suyun çox sadə, primitiv bir ekspertizasını apardım. Həmin ekspertizanın nəticələrini kütləvi informasiya vasitələrinə təqdim etdim. Bir həftə ərzində 3 yerdən, özü də ən böyük şirkətlər tərəfindən məhkəməyə verildim. Lakin istehlakçı təşkilatla heç kim məhkəmədə qarşılaşmaq istəmir. Çünki onların malları istehlakçılar tərəfindən boykot olunur. Həmin vaxt mənə zəng edənlər deyirdilər ki, sən benzindən də bahalı bir şeyə toxunmusan. Doğrudan da, Azərbaycanın əmtəə bazarında 1 litri 9 manata təklif edilən qablaşdırılmış sular var. Belə hallarda əhali məndən soruşur ki, hamısı iki hidrogen, bir oksigendən ibarətdirsə, bəs litri 9 manata olan içməli su nədir?

Bütün bu vasitələrdən istifadə edən su qablaşdıran şəxslər evlərə su daşıyır, butulkalara dolduraraq satış nöqtələrinə çatdırırlar. Heç kəs deyə bilməz ki, hər hansı "A" adlı suyun neçəsi birbaşa krantdan toplanıb, neçəsi təmizlənib və ya təmizlənməyib. Çünki bunları qoxu və dadla müəyyən etmək mümkün deyil. Çox təəssüf ki, bundan sui-istifadə edənlər istehlakçıları aldadırlar. Yeri gəlmişkən, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ay yarım bundan öncə qablaşdırılmış suların etiket məlumatları ilə tərkiblərinin düz gəlib-gəlmədiyi ilə bağlı müəyyən araşdırma aparıb. İstehlakçılar qablaşdırılmış su alan zaman mütləq onun mənbəyi ilə maraqlanırlar. Su qablarının üzərində isə "filan dağlardan", nə bilim "Qafqaz dağlarından gəlir" və s. məlumatlar əks olunur. Yalnız etiket məlumatları əsasında suyun mənbəyi məsələsini araşdıran AQTA ekspertləri bir neçə su istehsalçısının fəaliyyətinə qadağa qoyub. Bu özlüyündə çox yaxşı cəhətddir. Lakin suyun tərkibinin araşdırılması üçün onun 300-dək parametri nəzərdən keçirilməlidir. Azərbaycanda isə suyun bütün parametrlərinin araşdırılması üçün heç bir imkan yoxdur. Çox təəssüf ki, AQTA da suyun lazımi parametrlərini araşdırmır və yaxud araşdıra bilmir.

İstehlakçılar onu da bilməlidirlər ki, eyni bir su, məsələn "A" adı altında satılan məhsul ailənin beş üzvündən üçü üçün uyğun ola, ikisi üçün isə uyğun olmaya bilər. Hələ elm indiyədək sübut edə bilməyib ki, hansı DNK səviyyəsində codluğu nə dərəcədə olan və hansı tərkibdə su kimə xeyirdir və ya kimə zərərdir. Bu, elmdə araşdırılmamış bir məsələdir. Ona görə də istehlakçılara məsləhət görürürəm ki, suyu daim dəyişib içsinlər. Məsələn, mən Eyyub Hüseynov bəzən krant, quyu, bulaq və ya daşdan süzülmüş, bəzən də dükandan aldığım suyu içirəm. Elə istehlakçılara da hər dəfə eyni bir brend altında qablaşdırılmış, məsələn 20 litrlik qablarda olan sudan istifadə etmələrini məsləhət bilmirəm.

Ölkənin əmtəə bazarında böyük qiymət fərqi ilə satılan suların yararlılığına inanmaq olmaz. Ən bahalı suyun ən yaxşı su olmasını da söyləmək çətindir. Suyun primitiv analizləri var. "TDS" adlandırılan sadə bir cihaz vasitəsilə suyun codluğu ilə bağlı müəyyən informasiya əldə etmək mümkündür. Bununla belə, yenə də hansı insana hansı codluqda suyun lazım olmasını müəyyənləşdirmək çətindir. Mən həmin "TDS" aparatının köməyilə "Zəmzəm" suyunun digər sularla müqayisəsini apardım. Hər iki nümunədə parametrlərin dəqiqliyini yoxladım.

Yeri gəlmişkən, bir məqama da toxunmaq istəyirəm. Hazırda məişətdə istifadə olunan avtomatik birləşən çayniklərin, suqaynadıcı cihazların ziyanı xeyrindən qat-qat çoxdur. Həmin cihazlarda dəfələrələ qaynadılan suyu qəbul etmək məsləhət görülmür. Çünki təkrar-təkrar qaynadılan su ağır su sayıldığından insan orqanizmi üçün olduqca zərərlidir.

Sonda bir daha qeyd etmək istəyirəm ki, suyun ilahiliyi, onun açılmamış sirləri bəzi işbazların işinə yarayır. Bu da ölkəmizdə sularla bağlı böyük hərc-mərcliklərə gətirib çıxarır. Hesab edirəm ki, əhalinin sağlamlığının qorunması üçün bu sahədə nəzarətin gücləndirilməsinə və sərt cəza tədbirlərinin görülməsinə ciddi ehtiyac var.

dırma materialları yuyulub-təmizlənmir, suyun qablaşdırılması eyni sahədə həyata keçirilir, qablaşdırma materiallarının saxlanması üçün müvafiq sahə ayrılmır. Emal olunan məhsullara dair etiket məlumatları da dolğun qeyd edilmir. Temperatur rejiminə, havalandırma sisteminin quraşdırılmasına laqeyd yanaşılır, pəncərələr qoruyucu torla təmin olunmur. Eyni zamanda, dezinfeksiya işləri nəzərdə tutulan qaydada aparılmır. Bütün bunlarla bərabər, istehlakçıların aldadılması – qablaşdırılmanın üzərində markanın loqosunun saxta olması, suyun haradan gətirildiyinin, istehsal tarixinin həqiqəti əks etdirməməsi kimi məsələlər də ciddi narahatlıq doğurur.

Hazırda ölkənin müxtəlif ticarət şəbəkələrində hətta məşhur brendlərin saxta variantına rast gəlmək mümkündür. Əslində, hər birimizin bulaq suyu deyərək bəh-bəhlə içdiyi bu sular da heç də hansısa bulaq başından, təbii mənbələrdən doldurulmur. Beləliklə, üzərlərində müxtəlif təbiət mənzərələri, bulaq, çeşmə, dağ təsvirləri göstərməklə "təbii", "mineral", "müalicəvi", "bulaq suyu, "təbii süfrə suyu", "təbiətdən axan təbii su", "cavanlıq mənbəyi" , "çay və qəhvənin əsl dadı"... daha nələr, nələr sözləri yazılmaqla satışa çıxarılan sular insan orqanizm üçün təhlükə mənbəyinə çevrilir, necə deyərlər, ölümü cavanlaşdırır.

Ekspertlər bildirirlər ki, su, əsasən, müxtəlif cəlbedici adlarla satışa daha çox plastik qablarda çıxarılır. Həmin qab materialları isə demək olar ki, normalara uyğun gəlmir, təkrar emaldan hazırlanır ki, bu zaman kimyəvi-toksikoloji maddələr suyun tərkibinə nüfuz edir. Qablaşdırılma materiallarından suya keçən toksikoloji maddələrin uzun müddət qəbulu daxili orqanlarda və mərkəzi sinir sistemində ciddi fəsadlara gətirib çıxarır. Həmçinin bu, azmış kimi, isti günlərdə uzun müddət günəş şüası altında saxlanılır ki, nəticədə həmin suların tərkibindəki zərərli maddələr insan orqanizmində müxtəlif xəstəliklərin yaranmasına əlverişli şərait yaradır, sağlamlığa mənfi təsir göstərir.

Dezinfeksiya, filtrasiya proseslərinə riayət edilməməsi də suyun tərkibində olan mineralların böyük qisminin itməsinə, rəng, dad, qoxu və turşuluq kimi keyfiyyət göstəricilərinin aşağı düşməsinə səbəb olur.

Yeri gəlmişkən, söhbət etdiyimiz ekspertlər tərəfindən su filtrlərinin satışı ilə məşğul olan şirkətlərin üzərinə də keyfiyyət amili ilə bağlı məsuliyyət düşdüyü bildirilir. Vurğulanır ki, su filtlərinin müxtəlif çeşidlərinin satışını həyata keçirən həmin qurumlar tərəfindən təklif edilən

### Ekspert rəyi



**Leyla ZÜLFÜQARLI,**
**həkim-dietoloq**

Orqanizmin sağlamlığı sağlam maye qəbulundan çox asılıdır. İnsan orqanizminin üçdə iki hissəsindən çoxunu maye təşkil etdiyi üçün onun suya olan tələbatı vaxtında və norma daxilində ödənilməlidir. Bu zaman qazlı sulara, energetik içkilərə, müxtəlif şirələrə deyil, məhz doğru suya üstünlük verilməlidir. Doğru su isə bütün parametrlərə uyğun gəlməli, tərkibi təmiz və zəngin olmalıdır.

Belə ki, fiziki xassələrinə görə su dadsız, iysiz və rəngsizdir. Kimyəvi xassələrinə görə isə suyun tərkibi



konkret minerallarla: kalsium, maqnezium və hidrokarbonatlarla zəngindir. Yəni sonradan hansısa bir zərərsizləşdirilmə naminə xlorlanmış su da doğru hesab edilə bilməz. Eyni zamanda, su bioloji təmiz olmalıdır. Bir sözlə, su qeyri-müəyyən olmalı deyil. Məhz onun bioloji fəallığa malik tərkibi olmalıdır. Yəni 2 hidrogen və 1 oksigen atomundan ibarət suyun tərkibində natrium, kalium ionları olmalıdır. Bütün hallarda isə su qazlı deyil. Suya qaz sonradan karbon-oksid olaraq vurulur.

Fiziki xassələrinə görə doğru olan su da uzun müddət saxlandıqda keyfiyyətini itirir. Yeri gəlmişkən, suyun özünün saxlanma müddəti 8 sutkadan çox olmamalıdır. Xüsusən də suyun plastik qablarda uzun müddətə saxlanması yolverilməzdir. Plastik qabların özü də nəzərdə tutulmuş standartlara cavab verməlidir. Yəni su qabının üzərindəki üçbucaq şəklinin içərisində lazımi məlumatın qeyd olunması ondan xəbər verir ki, həmin qab, sadəcə, polietilen tərkibli deyil. Bu xüsusi bir tərkibdir ku, suyun qablaşdırılmasında istifadə oluna bilər. Onu da deyim ki, plastik qablar həyatımızda o qədər çoxdur ki, onların ziyanlı olmasına bir o qədər də əhəmiyyət vermirik.

Hər şeydən əvvəl, bu tip qablarda uzun müddətə saxlanılan suyun istifadəsi doğru deyil. Xüsusən də plastik qablarda günəş şüalarının altında, daha yükdək temperaturda saxlanılan sularda oksidləşmə baş verir. Belə bir şəraitdə isə həmin qabların tərkibində olan kseno-ekstragenlər, yəni sintetik maddələr suyun keyfiyyətinə birbaşa təsir göstərərək onu içmək üçün yarasız vəziyyətə gətirir. Plastik qablarda saxlanılan maye və digər ərzaqlar birbaşa olaraq bizim hormonal sistemimizə təsir edir. Apardığım müşahidələr əsasında insanlarda artan hormonal disbalansın şahidi oluram. Heç şübhəsiz, bütün bunlar plastik qablardan həddindən artıq istifadə ilə bağlıdır. Bu baxımdan əhali şüşə qablarda saxlanılan suların qəbuluna daha çox üstünlük verməlidir.

Çox təəssüf ki, müəyyən şirkətlərin standarta cavab verməyən plastik qablarda satışa çıxardıqları sular müddətindən artıq saxlandığı üçün, necə deyərlər, zəhərə çevrilir. Çünki belə qabların tərkibində olan kseno-ekstragenlər toksin yükü olaraq orqanizmdə toplanır və sonradan mənşəyi məlum olmayan bir sıra xəstəliklərin yaranmasına gətirib çıxarır. Bu səbəbdən belə suları qətiyyən içmək olmaz. Bununla yanaşı, hazırda bazara çıxarılan saxta, yalançı sular da var ki, kimyəvi və fiziki xassələri uyğun olmadığı üçün müxtəlif xəstəliklərə yol açır. Eyni zamanda, adi suların tərkibinin bioloji təmizlənməsi də çox ciddi məsələdir. Çünki bu zaman istifadə olunan xlor toksin olduğu üçün insan orqnizminə ziyandır.

Yeri gəlmişkən, son illər əhali, xüsusən gənclər arasında energetik içkilərə maraq getdikcə artır. Energetik içkilərin tərkibindəki kofein anında tonuslandırma effekti yaradaraq tez bir zamanda qana şəkər və qlükoza daxil edir ki, bu da qısa müddətdə əhval-ruhiyyəni yaxşılaşdırır. Bu səbəbdən insanlar belə içkilərə meyillənir, sanki onu içdikdə həzz alırlar. Amma bu, yalançı hissdir. Çünki energetik içkilər insan orqanizmini heç bir maddə verərək gücləndirmir. Kofein kimi maddələr, sadəcə, insanın bədənini tonuslandıraraq bütün daxili enerjini, daxili resursları anında bir dəfəyə xərcləyərək orqanizmi tükəndirir, insanı məhvə sürükləyir. Elə qəfil ölümlərin çoxalması, bioloji ölümlərin gəncləşməsi də birbaşa energetik içkilərdən həddindən artıq istifadənin nəticəsidir.

Sonda bir daha vətəndaşlara çağırış edərək bildirmək istəyirəm ki, artset, qazlı və şəkərli içkilər tərkibinin qeyri-müəyyən olması səbəbindən birmənalı olaraq ziyandır. Belə içkilərin tərkibindəki konservantlar, rəngləndiricilər və dadlandırıcılar orqanizmdə artıq çöküntü olaraq toksin şəklində yüklənərək müəyyən xəstəliklərin yaranmasına səbəb olur.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 255 (30371) 23 noyabr 2023-cü il, cümə axşamı


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*


Qarabağ Azərbaycandır!
Xalq qəzeti
Varislik ənənəsində Qələbə ovqatı
Biz öz haqqımızı geri qaytardıq
Polad kimi qəhrəman...
Zəfər zirvəsinə ucalan bayrağım!

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Kino

# Aktrisa hədəfdə

**İranda məşhur aktrisa Azadə Səmədinin ölkədən çıxışına qadağa qoyulub. Bu barədə “Telegram” kanalı xəbər verib.**



Bildirilir ki, aktrisanın Tehranın İmam Xomeyni adına Beynəlxalq Hava Limanında pasportu əlindən alınıb və ona ölkədən çıxmasına icazə verilməyib.

Buna səbəb isə onun həmkarının dəfn mərasimində hicaba riayət etməməsinə görə barəsində iş açılması olub.

Azadə Səmədi Hindistanda Goa ştatında keçirilən 54-cü Hindistan Beynəlxalq Film Festivalına yollanmaq niyyətində olub.

**XQ**

İdman xəbərləri

# AFFA Canni De Byazi ilə yollarını ayırdı

**Canni De Byazi Azərbaycan milli komandasının baş məşqçisi postunu tərk edib.**



Bu qərar AFFA-nın İcraiyyə Komitəsinin dünən keçirilmiş fövqəladə iclasında qəbul olunub. Belə ki, italiyalı mütəxəssis noyabr ayının sonunda başa çatacaq müqaviləsinin müddətinin uzadılmamasını xahiş edib. Onun istəyi İK tərəfindən qəbul olunub.

Qeyd edək ki, Canni De Byazi 2020-ci ilin avqustundan Azərbaycan millisinin baş məşqçisi postunda çalışırdı.

# Kikboksçumuz yenə qalibdir

**Kikboksçumuz, dünya kəmərinin sahibi Şikar Bədəlov növbəti döyüşdə qələbə qazanıb.**



Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin yetirməsi 81 kiloqram çəki dərəcəsində “King of Kings” reytinq döyüşündə niderlandlı Nabil Xazrini (91 kq) məğlub edib.

Qeyd edək ki, Şikar Bədəlov bu ilin fevralında Türkiyənin İstanbul şəhərində keçirilən dünya kuboku yarışında mərakeşli Nordin El Benmofu birinci raundun ilk dəqiqəsində məğlub edərək qalib adına layiq görülüb.

# Voleybolçularımız yenə də məğlub olublar

**Şərqi Avropa Zonal Assosiasiyası (EEVZA) çempionatında 18 yaşadək voleybolçu qızlardan ibarət Azərbaycan millisi növbəti oyununu keçirib.**



Latviyada keçirilən yarışda Şahin Çatmanın baş məşqçisi olduğu kollektiv Estoniya ilə qarşılaşıb. Komandamız rəqibə 0:3 hesabı ilə yenilib. Bundan əvvəl də yığmamız Latviya və Ukraynaya eyni hesabla məğlub olub.

Noyabrın 26-dək davam edəcək və AVRO-2024-ə seçmə xarakter daşıyan EEVZA çempionatının qalibi qitə birinciliyinin final mərhələsinə vəsiqə əldə edəcək.

***Leyla SABİRQIZI***
***XQ***

Kosmos

# Kainatın sonu varmı?

**Biz ən uzaq görünən ulduza baxarkən, 4 milyard il keçmişə boylanırıq. Ondan gələn və saniyədə, demək olar ki, 300 min kilometr sürətlə hərəkət edən işıq bizə yalnız uzun illərdən sonra çatır.**



Bizə ən yaxın olan (Günəşdən sonra) Proksima Sentavr ulduzuna çatmaq üçün orta hesabla saatda 60 kilometr sürətlə hərəkət edən avtomobilə, təxminən, 48 milyon il vaxt lazım gələrdi. Proksima Sentavradək məsafə 4,24 işıq ilidir.

Saturnun peyki olan Titanda eynilə Yerdəki kimi çaylar, göllər və sahil zolaqları mövcuddur. Üstəlik, burada yağış da yağır. Lakin bu yağışlar Yerdəki yağışlarla eyni deyil. Titanda yağışlar metan və etandan yaranır. Dünyada onlar qaz halında olsa da, Titanda maye halındadır.

İnsan heç vaxt kosmik fəzanın kənarına gedib çıxa bilməyəcək. Belə ki, istənilən istiqamətdə hərəkət edərsə, o, başlanğıc nöqtəsinə qayıdacaq. Buna səbəb kosmik fəzanın əyilməsidir. Bu vəziyyəti astronomlar heç cür izah edə bilmirlər.

**XQ**

Kino

# “Yargı” “Emmi” qazanıb

**Türkiyənin məşhur “Yargı” (“Hökm”) adlı serialı Beynəlxalq “Emmi” Mükafatına layiq görülüb. Nyu-Yorkun “Hilton Midtown” hotelində təşkil olunan müsabiqədə 20 ölkədən 14 kateqoriya üzrə 56 layihə təmsil olunub. “Yargı” “Ən yaxşı telenovella” nominasiyasında qalib elan edilib.**




Qaliblərin mükafatlandırma mərasimində serialın prodüseri Kerem Çatay, rejissoru Ali Bilgin, ssenari müəllifi Sema Ergenekon, baş rolların ifaçıları Pınar Deniz və Kaan Urgancıoğlu iştirak ediblər.

***FİDAN***
***XQ***

# Səhrada kurort möcüzəsi



***Qırmızı dənizin Əqəbə körfəzi yaxınlığındakı səhra tezliklə futuristik kurort zonasına çevriləcək. Layihə müəlliflərinin sözlərinə görə, tipik kurort zonaları öz bəsitlikləri ilə riayət edilməli olan uzun-uzadı standartların və ənənələrin siyahısına görə artıq insanları bezdirib.***

Bunun əvəzinə, kurort həvəskarlarına futuristik və innovativ dizayna malik “iлğımlardan ibarət konsepsiya” təqdim olunması nəzərdə tutulur. Bu göydələnlər özlüyündə səyyahların gözlərini yanıldan və bənzəri olmayan zövqlər burulğanı bəxş edən səhra ilğımlarını xatırlatmalıdır.

Layihə üzrə inşa ediləcək ilk göydələnin hündürlüyü 225 metr, ikincisinin isə 275 metr olacaq. Bu binaların yanında çox hündür olmayan və təsərrüfat obyektlərinin və xidməti otaqların yerləşəcəyi qüllə kompleksi tikiləcək. Körfəzin düz sahilində isə dizaynı birbaşa yerli relyeflə uzlaşan 50 çimərlik villası inşa olunacaq.

**XQ**

Sensasiya

# Fillərin də öz dili varmış

**Fillər ən ağıllı heyvanlardandır, elm tərəfindən yaxşı öyrənilib. Lakin bu yaxınlarda beynəlxalq alimlər qrupu əsl sensasiya yaradacaq araşdırma aparıblar: Afrika filləri bir-biri ilə adları vasitəsilə ünsiyyət qururlar. Buna bənzər hal heyvanlar aləmində heç vaxt müşahidə olunmayıb.**



Alimlərin araşdırmasına görə, fillər planetimizdə yeganə heyvanlardır ki, insanlar kimi bir-birinə adlar verirlər. Bu qənaətə alimlər Afrika fillərini öyrənəndən sonra gəliblər. Cəmi 527 müxtəlif cür səs qeydə alınıb. İlk baxışda bunlar bizim qulağımız üçün, demək olar ki, eyni səslərdir.

Fillərin bir-birinə müraciətini, yəni “adları” digər səslərdən ayırd etmək üçün kompüter modelindən istifadə olunub. Alimlər səslərə məntiqi cəhətdən yanaşıblar. Əgər fillər eyni fili səsləyirdilərsə, o halda eyni səsi çıxarırdılar və bu səs onun “adı” idi. Deməli, bu qrupun bütün üzvlərinin adları var və məhz adlar vasitəsilə bir-biri ilə təmas qururlar.

Qeyd edək ki, delfinlər və tutuquşular da bir-birilərini səsləyirlər. Lakin prinsipial fərq mövcuddur: onlar ad qoymur, yalnız həmin heyvanın çıxardığı səsləri imitasiya edirlər. Faktiki olaraq, hər heyvan müəyyən səs çıxararaq özünə “ad” qoyur. Fillər isə bir-birinə ad qoyan yeganə heyvandır.

**XQ**

Sağlamlıq

# Kalium, maqnezium – yüksək təzyiqdən qorun

**Hipertoniyadan əziyyət çəkənlər təzyiqini normada saxlamaq üçün təyin olunmuş preparatları vaxtlı-vaxtında qəbul etməli, bədən çəkisini qaydasında saxlamalı, sağlam qidalanmalıdır. Hipertoniyaya nəzarət prosesində sağlam qidalanma böyük rol oynayır. Bəzi məhsullar da var ki, onların müntəzəm istehlakı təzyiqi eyni səviyyədə saxlamağa yardım edir.**



Bişmiş kartof kalium və maqneziumla zəngindir. Məhz kalium və maqnezium təzyiqi normallaşdırmağa kömək edən ən yaxşı maddələr kimi tanınır.

Qatıq təzyiqi normal saxlamağa ən yaxşı köməkçidir. Mütəxəssislər hər gün 1 stəkan qatıq yeməyi tövsiyə edirlər.

Banan duzun orqanizmə olan mənfi təsirini azaldır. Duz orqanizmdə mayeni saxlayaraq təzyiqin qalxmasına səbəb olur. Həmçinin kaliumla zəngin olan banan damarların vəziyyətini yaxşılaşdırır.

Kakao flavonoidlərlə zəngin olduğundan damarların sağlamlığına müsbət təsir edir, elastikliyini qoruyur.

Lobya kalium, maqnezium və qidalı liflərlə zəngindir. Bunlar təzyiqi normal səviyyədə saxlamaq üçün çox faydalıdır.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava

# Külək cövlan edəcək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 23-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecəyə doğru bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Arabir güclənən cənub-qərb küləyi əsəcək, axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 8-11°, gündüz 13-17° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 754 mm civə sütununa enəcək, nisbi rütubət gecə 65-75 , gündüz 40-50 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Lakin axşam bəzi şərq rayonlarında yağış yağacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 13-18° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 8-13° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4815
SİFARİŞ 3057
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00